RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 255 (8278) BAZAR, 17 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## 17 Noyabr - Milli Dirçəliş Günüdür




**Hər bir dövlətin qurulmasında tarixi hadisələrin xüsusi rolu və əhəmiyyəti olub. Bu baxımdan müstəqillik uğrunda xalqımızın mücadilə tarixinə nəzər salsaq milli dirçəliş hərəkatının öz yerinin olduğunu görərik. 31 il əvvəl, 1988-ci ilin noyabrında Bakıda insanlar meydanlara çıxmaqla Azərbaycanı müstəmləkə əsarətində saxlayan sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdılar. Həmin günlər göstərdi ki, xalqımız müstəqil olmağa, azad yaşamağa layiqdir.**

### Azadlıq ideyası milli düşüncəyə hakim kəsildi

Xalqımızın istiqlal mübarizəsinin əsas mərhələlərindən olan 1988-ci ilin noyabr hadisələri respublikamızın müstəqilliyinin bərpa edilməsində mühüm rol oynadı. Həmin dövrdə ermənilərin Topxana meşələrində törətdikləri vəhşiliklər, Ağdamda iki azərbaycanlının qətlə yetirilməsi ölkənin hər yerində milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində bir dəfə azadlığını əldə edən xalqımız müstəqillik arzularını reallaşdırmaq üçün yeni tarixi fürsətin yetişdiyini hiss edirdi. Beləliklə, 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

O dövrdə mərkəzdənqaçma meyillərinin gücləndiyi proseslərin gedişatı göstərirdi ki, yalnız yüksək amallara xidmət edən cahanşümul bir ideya bu gün haqqında hər birimizin böyük qürur hissi ilə danışdığımız müstəqil, dinamik inkişaf edən Azərbaycan reallığını ərsəyə gətirə bilərdi. O dövrdə ölkəyə rəhbərlik edənlər isə bundan uzaq idi. Özlərini milli azadlıq mücadiləsinin lideri hesab edənlərin də gələcəyə hesablanmış təkmil ideyaları yox idi. Azadlıq istəyi xalq hərəkatından başlasa da, meydanda rəhbərlik iddiasında olanların səbatsızlığı və səriştəsizliyi nəticəsində və respublikanın dərin böhrana sürükləndiyi bir vaxtda insanlar getdikcə daha da dərindən əmin olurdular ki, həqiqi liderə böyük ehtiyac var. Tarix də sübut edir ki, xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin müstəsna rolu danılmazdır. Tarix isə təkrarlanır və belə tarixi şəxsiyyətin, dahi siyasətçinin Heydər Əliyev olduğu hər kəs tərəfindən qəbul olunurdu. Bunu ovaxtkı ittifaq və respublika rəhbərliyi də aydın dərk edirdi. Ona görə də dahi siyasətçini siyasi təqiblərə, əsassız böhtanlara məruz qoyur, xalqın onun ətrafında birləşəcəyindən qorxur, Azərbaycana qayıdaraq siyasi fəaliyyətlə məşğul olmasına əngəllər törədirdilər.

*Ardı 5-ci səh.*

## Azərbaycan Respublikası Hökuməti ilə Sverdlovsk vilayəti (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və digər sahələrdə beynəlxalq və xarici iqtisadi əlaqələrin həyata keçirilməsi haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Sverdlovsk vilayəti (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və digər sahələrdə beynəlxalq və xarici iqtisadi əlaqələrin həyata keçirilməsi haqqında 2019-cu il sentyabrın 11-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Sverdlovsk vilayəti (Rusiya Federasiyası) Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2019-cu il*

## Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında 2019-cu il oktyabrın 14-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2019-cu il*

## Latviya Respublikasının Prezidenti zati-aliləri cənab Egils Levitsə

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Latviyanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, xoş ənənələrə malik əlaqələrimizin genişləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə inkişaf etdirilməsi bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*

## Omanın Sultanı Əlahəzrət Qabus bin Səidə

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*

## "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1672-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1672-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*

## Ceyhanda Azərbaycan nefti ilə 220-dən çox tanker yüklənib



**Bu ilin ilk 9 ayı ərzində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri ilə 24 milyon tona yaxın (177 milyon bareldən çox) xam neft nəql olunub. Ceyhan terminalında Azərbaycan nefti ilə 222 tanker yüklənib.**

BTC Azərbaycanın neft strategiyasının ayrılmaz hissəsidir. Bu boru xətti ilə qapalı hövzə olan Xəzər dənizindən dünya bazarlarına tamamilə yeni bir marşrut açılıb. Başqa sözlə, BTC beynəlxalq bazarlara təhlükəsiz və etibarlı çıxışı təmin edən bir marşrutdur və regionun enerji ixracının başlıca arteriyası sayılır.

Hazırda "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil olunan neftin böyük hissəsi dünya bazarlarına BTC ilə çatdırılır. "Şahdəniz"in kondensatı da bu kəmərə vurulur. BTC vasitəsilə bundan əlavə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti də nəql olunur.

2006-cı ilin ortalarında tam sistem kimi istifadəyə veriləndən bəri BTC ilə ümumilikdə 440 milyon tona yaxın (3,3 milyard barel) xam neft ixrac edilib. Bu neft Ceyhanda 4307 tankerə yüklənərək dünya bazarlarına çıxarılıb.

*Ardı 3-cü səh.*

## Bakı dinlərarası dialoqun mərkəzinə çevrilib

### İLHAM ƏLİYEV: "Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir"

**Azərbaycan Prezidenti İlham Əliyev hələ Milli Olimpiya Komitəsinin 20 illik yubileyində iştirak etmək üçün ölkəmizə gəlmiş xarici dövlətlərin nümayəndələrini qəbul edərkən bildirmişdi ki, bizim artıq beynəlxalq tədbirləri təşkil etməkdə böyük təcrübəmiz var. Biz Azərbaycanda daha çox beynəlxalq tədbirlərə evsahibliyi etmək əzmindəyik.**

O tarixi çıxışdan ötən beş il ərzində təsdiqləndi ki, Azərbaycanın Şərqlə Qərbin qovuşuğunda yerləşməsi ölkəmizi dünya dövlətləri üçün bir qədər də maraqlı edib. Son illər respublikamızın sürətli inkişaf yolunda olması da dünyanın diqqətini Azərbaycana yönəldib. Nəinki yerləşdiyi Cənubi Qafqazda, əslində, Avropada, bir qədər də geniş coğrafi məkanda götürsək, dünyanın inkişaf etmiş ölkələri arasında nüfuzu ilə seçilən, regional və beynəlxalq layihələrin iştirakçısı olan Azərbaycan artıq ən mötəbər tədbirlərə, zirvə toplantılarına, forumlara, elmi konfranslara, idman və musiqi yarışlarına, beynəlxalq teatr, kino festivallarına evsahibliyi edir.

Respublikamızın mötəbər beynəlxalq tədbirlərə evsahibliyi Avropa və dünya çapındakı yüksək nüfuzunun göstəricisidir.

*Ardı 3-cü səh.*

## Emal olunan xurmaya tələbat çoxdur

**Aqrar sektorda aparılan islahatlar genişdir. Bu, təkcə coğrafi baxımdan deyil, islahatların əhatə dairəsinə görə də belədir. İslahatlar dövründə ənənəvi sahələrin yenidən bərpası da gündəmə gəldi. Beləliklə, son illər unudulmaq üzrə olan sahələrin dirçəldilməsi istiqamətində böyük işlər görüldü.**



Pambıqçılığın, tütünçülüyün, tərəvəzçiliyin, çəltikçiliyin, fındıqçılığın, baramaçılığın yenidən inkişafı üçün dövlət tərəfindən müxtəlif layihələr hazırlandı, həmin sahə ilə məşğul olan fermerlərə dəstək verildi. Belə sahələrdən biri də xurma istehsalının inkişafıdır. Xurma istehsalında da yüksək məhsuldarlığa nail olmaq üçün İspaniyadan xurma tingləri gətirilərək fermerlərə paylanıb.

Hazırda ölkəmizin 21 rayonunda xurma yetişdirilir. Beş il əvvəl İspaniyadan gətirilən həmin yeni xurma sortları fermerlərə verildikdən sonra bu sahədə məhsul istehsalı artıb.

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225; 2019, № 4, maddələr 570, 579, № 5, maddələr 796, 812) 10.2.9-1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"10.2.9-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**Maddə 2.** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1659-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 86.0.16-cı maddədən "və psixoloji" sözləri çıxarılsın;

2.2. 87.1.17-ci maddə aşağıdakı redaksiyada verilsin:

"87.1.17. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**Maddə 3.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD, 1626-VQD nömrəli, 9 iyul tarixli 1636-VQD nömrəli, 12 iyul tarixli 1660-VQD və 1662-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 215-1-ci maddə əlavə edilsin:

"**Maddə 215-1.** Psixoloji yardım haqqında qanunvericiliyin pozulması

215-1.1. Psixoloji yardım almağa məcbur etməyə görə -

beş yüz manat məbləğində cərimə edilir.

215-1.2. Klinik psixoloji yardım göstərilməsi zamanı klinik (tibbi) psixoloq tərəfindən dərman preparatlarının təyin, o cümlədən insan orqanizmini mexaniki və ya digər təsirlərə (cərrahiyyə, lazer, ionlaşdırıcı şüa, ultrasəs, elektrokonvulsiv terapiya) məruz qoyan müalicə üsullarından istifadə edilməsinə görə -

fiziki şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər min iki yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

215-1.3. Psixoloji yardım sahəsində psixoloji yardım alan şəxslərin həyatına, sağlamlığına, psixoloji rifahına və ya ləyaqətinə zərər yetirə biləcək tədqiqatlar aparılmasına görə -

fiziki şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min iki yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

# Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836; 2017, № 8, maddə 1512) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.8-ci maddədə "psixi" sözü "psixoloji" sözü ilə əvəz edilsin;

1.2. 7.0.1-ci, 15.0.5-ci və 19.2.3-cü maddələrə "reabilitasiya" sözündən sonra "və psixoloji korreksiya" sözləri əlavə edilsin;

1.3. 8.0.6-cı maddədə "psixoloji" sözündən əvvəl "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada" sözləri əlavə edilsin.

**Maddə 2.** "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.0.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.0.12-ci maddə əlavə edilsin:

"8.0.12. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq.";

2.2. 23.0.3-cü maddədə "psixoloji vəziyyətinin reabilitasiyası" sözləri "psixoloji yardımı" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 272) 7.0.4-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"7.0.4. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**Maddə 4.** "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347, № 7, maddə 767; 2016, № 6, maddə 987; 2018, № 10, maddə 1979, № 11, maddə 2226; 2019, № 4, maddə 579) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 15.1.22-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15.1.22. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;";

4.2. 22.4-cü maddədən "və psixoloji" sözləri çıxarılsın.

**Maddə 5.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 10.23-cü maddəyə "təşkil olunur" sözlərindən sonra "və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə, psixoloji yardım həyata keçirilir" sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 18.2.5-1-ci maddə əlavə edilsin:

"18.2.5-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

# "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1677-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1677-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 215-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2019-cu il*

# "Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1676-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1676-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının "Məişət zorakılığının qarşısının alınması haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və "Peşə təhsili haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2019-cu il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD, 1626-VQD nömrəli, 9 iyul tarixli 1636-VQD nömrəli, 12 iyul tarixli 1660-VQD və 1662-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 391-1-ci maddə əlavə edilsin:

"Maddə 391-1. Xüsusi notarius işləmiş şəxs tərəfindən notariat hərəkətləri barədə sənədlərin dövlət notariat arxivinə təhvil verilməməsi

Fəaliyyətinə xitam verilmiş xüsusi notarius tərəfindən aparılmış notariat hərəkətləri barədə sənədlərin bir ay müddətində dövlət notariat arxivinə təhvil verilməməsinə görə -

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1673-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1673-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 391-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxan dövlət orqanı (qurumu) barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2019-cu il*

# "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci, 11-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 saylı Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 687; 2004, № 7, maddə 505; 2006, № 3, maddə 223; 2010, № 11, maddə 936; 2013, № 5, maddə 464; 2014, № 11, maddə 1334; 2015, № 10, maddə 1083; 2018, № 6, maddə 1189; 2019, № 3, maddə 386, № 5, maddə 794; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 44-cü maddənin üçüncü hissəsinin birinci cümləsində "dövlət notariat haqqında" sözləri "Notariat haqqında" Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin;

1.2. 46-cı maddədə "dövlət notariatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10, № 6, maddə 414; 2001, № 5, maddə 293, № 11, maddə 687, № 12, maddə 740; 2002, № 5, maddə 241, № 6, maddə 328, № 12, maddə 706; 2004, № 5, maddə 318; 2005, № 4, maddə 281, № 8, maddə 699, № 10, maddə 903, № 11, maddə 993; 2007, № 1, maddə 4, № 2, maddə 69, № 8, maddə 745, № 11, maddələr 1053, 1075; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 1, maddə 5, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 7, maddə 597, № 11, maddə 938; 2011, № 4, maddə 258, № 12, maddə 1098; 2012, № 10, maddə 946; 2013, № 11, maddə 1271; 2014, № 11, maddə 1353; 2015, № 5, maddə 487; 2016, № 1, maddə 11, № 7, maddə 1243, № 12, maddə 2025; 2017, № 2, maddə 148, № 12 (I kitab), maddə 2236; 2018, № 7 (I kitab), maddə 1388, № 8, maddə 1673, № 11, maddə 2230; 2019, № 1, maddə 22, № 6, maddələr 993, 997) 79-cu maddəsinə birinci və ikinci hallarda "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "Elektron notariat" sözləri, üçüncü halda "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "Elektron icra" sözləri əlavə edilsin.

**Maddə 3.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddə 1176; Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1643-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.0.2-ci maddədə "notariat kontorları" sözləri "notariuslar" sözü ilə əvəz edilsin;

3.2. 10-cu maddənin adında "Notariat kontorları" sözləri "Notariuslar" sözü ilə əvəz edilsin;

3.3. 10.20-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.20. Ərizələrin və ya digər sənədlərin başqasına verilməsi, habelə kağız və ya elektron daşıyıcıda olan ərizə və ya digər sənədlərin hazırlanmış elektron və kağız nüsxələri ilə eyniləşdirilməsi haqqında şəhadətnamələrin verilməsi (hazırlanmış hər səhifəyə görə) və bu Qanunun 10.1-10.19-cu maddələrində göstərilənlərdən başqa digər notariat hərəkətləri üçün - 5 manat".

**Maddə 4.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202; Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1637-VQD Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 334.2-ci maddədə "notariat haqqında qanunla" sözləri "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin;

4.2. 362.3.2-ci maddədə "kontorlarının" sözü "ofislərinin" sözü ilə əvəz edilsin;

4.3. 1243.2-ci maddədə "kontoruna" sözü "ofisinə" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

# Bakı dinlərarası dialoqun mərkəzinə çevrilib



*Əvvəli 1-ci səh.*

Qeyd olunmalı faktlardan biri Azərbaycanın beynəlxalq təşkilatların, dünya dövlətlərinin etimadını qazanmasıdır. Məhz bunun bəhrəsidir ki, Azərbaycanda siyasət, idman, mədəniyyətlə bağlı beynəlxalq tədbirlər artıq silsilə xarakteri daşımaqdadır. Azərbaycanın dini, milli münasibətlər, mədəniyyətlərarası dialoqlar üzrə bir çox tədbirlərə - beynəlxalq konfranslara evsahibliyi, UNESKO-dan ISESCO-ya qədər, BMT-dən Avropa Şurasınadək və başqa beynəlxalq təşkilatlarda böyük fəallıq nümayiş etdirməsi ölkənin bütün sahələrdə inkişafının gətirdiyi uğurlar, Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi siyasətin nəticəsidir.

Bu günlərdə Azərbaycan paytaxtında daha bir beynəlxalq tədbir - Dünya dini liderlərinin II Bakı Sammiti də keçirildi. Belə beynəlxalq tədbirlərin çox böyük əhəmiyyəti var. İlk növbədə ona görə ki, Azərbaycan bu mötəbər tədbirə ikinci dəfə evsahibliyi edirdi. Bu, bir daha onu göstərdi ki, Azərbaycan dinlərarası dialoqun inkişafında öz önəmli rolunu bundan sonra da oynayacaq.

Azərbaycan dövləti qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə belə tədbirlərə evsahibliyi edir. Dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçilərinin, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksəksəviyyəli nümayəndələrinin və dini rəhbərlərinin qatıldığı Dünya dini liderlərinin II Bakı Sammitinin də tarixi əhəmiyyəti ilə yadda qalacağına şübhə yoxdur.

Xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlər ölkəmizin və xalqımızın dünyada olduğu kimi tanıdılmasında mühüm amillərdən birinə çevrilib. Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamı olan bu sammit də bir sıra məsələlər baxımından diqqət çəkməkdədir.

İkigünlük sammitdə bir sıra qlobal problemlərin həllinə töhfə ola biləcək ("Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti") mövzular ətrafında ciddi müzakirələr aparıldı.

Bakıda belə mötəbər tədbirin keçirilməsini təbii hesab edən dövlət başçısının fikrincə, Azərbaycanın qədim dinlərarası ənənələri var: "Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır..."

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimlərindən ibarət nümayəndə heyətini qəbul edərkən də bildirdi ki, Qafqazda qarşılıqlı fəaliyyət, əməkdaşlıq və dinlərarası dialoq məsələləri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir: "...Hamıya yaxşı məlumdur ki, Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır. Biz, sadəcə, atalarımızın, babalarımızın ənənələrini davam etdirir, əlaqələrimizi möhkəmlədir, bununla da Qafqazda təhlükəsizliyin, sabitliyin və inkişafın möhkəmlənməsi işinə çox böyük töhfə veririk. Dəfələrlə dediyimiz kimi, Qafqaz vahid orqanizmdir, o elə bir məkandır ki, orada yerli xalqlar əsrlər boyu yaşayır, qurur, yaradırlar, memarlıq abidələri yaradırlar və gələcəyə inamla baxırlar. Əlbəttə, hesab edirəm ki, Qafqazda təhlükəsizliyin daha da möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün Rusiya-Azərbaycan münasibətləri həlledici rol oynayır".

Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyev də dövlət başçısına səmimi qəbul üçün təşəkkürlərini bildirərkən Ulu Öndər Heydər Əliyevin siyasətinin uğurlu davamının şahidi olduqlarını bildirdi: "...Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda gördüyü işlərin bəhrələrini biz burada Sizin timsalınızda görürük: Çox sağ olun. Biz hər dəfə buraya gələndə Azərbaycanda necə dəyişikliklər baş verdiyini görürük. Burada hər yer gözəldir, xaricdə belə şey yoxdur. Bütün bunlar Sizin sayənizdə mümkün olub. Axı mən Bakını sovet dövründə də, Elçibəyin zamanında da görmüşəm. İndi tamamilə başqadır. Siz nə edirsinizsə, Azərbaycan xalqı üçün edirsiniz. Sovet dövründə biz fəxr edirdik ki, Sov.İKP MK Siyasi Bürosunda bir müsəlman var. Siz onun yolunu davam etdirirsiniz. Bu işi davam etdirmək üçün Allah Sizə qüvvət və sağlamlıq versin".

Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri fikirlərinin yekununda onu da vurğuladı ki, Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyada çox böyük nüfuzu var: "...Biz Prezidentimiz Vladimir Vladimiroviçin Sizə necə münasibət bəslədiyini görürük, o, Sizə hörmətlə yanaşır. O, Sizin atanızı tanıyır. Onlar vaxtilə birlikdə işləyiblər. Belə adamlar heç nəyi gözdən qaçırmırlar, onlar hər şeyi bilirlər. Buna görə Sizin bu dostluğunuz bizim üçün çox dəyərlidir".

Sammitdə xüsusi vurğulandığı kimi, qədim tariximizi əks etdirən həm də bizim dini abidələrimizdir. Onlar bir daha sübut edirlər ki, Azərbaycan qədim diyardır. Həmçinin ayrı-ayrı dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşayıb-yaratmış və gözəl tarixi miras qoymuşlar. Doğrudan da, bu, xalqımız üçün böyük fəxrdir, bunu dövlət başçısı da öz çıxışlarında dəfələrlə vurğulayıb ki, İslam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir. Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir, bir neçə il bundan əvvəl əsaslı təmir olunmuş bu dini məbəd Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir.

Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir. Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi - Atəşgah yerləşir. Bu isə zərdüştlük dininin Azərbaycanda qədim köklərinin olduğunu təsdiqləyən faktlardan biridir. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilib.

Azərbaycan Prezidenti sammitdə əminliklə vurğuladı ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq: "Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır".

Azərbaycan Prezidentinin sammitdə qeyd etdiyi kimi, tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəməyən Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilib və ya yenidən tikilib. Bir sözlə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi var: "...Müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir. Bu da o deməkdir ki, xalqımız və dövlətimiz islam dininə sadiqdir. Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər... Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir..."

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Müdafiə naziri əməliyyat təliminin yekunlarına dair xidməti müşavirə keçirib



Noyabrın 16-da Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təliminin yekunlarına dair xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də videobağlantı vasitəsilə cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən əməliyyat təliminin nəticələrini təhlil edən Müdafiə naziri qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini bildirib, komandir heyətinin qoşunları idarə etmək bacarığını, ümumilikdə hərbi qulluqçuların peşəkarlıq səviyyəsini yüksək qiymətləndirib.

Nazir təlimin əhəmiyyətini qeyd edərək Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb, döyüş hazırlığının daha da yüksəldilməsi məqsədilə müxtəlif səviyyələrdə təlim və məşqlərin sayının və səmərəliliyinin artırılmasını əmr edib.

General-polkovnik Z.Həsənov ön xətdə yerləşən bölmələrin döyüş hazırlığı, müdafiə sisteminin hərtərəfli təminatı, döyüş növbətçiliyinin və qoşunların döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsi ilə əlaqədar müvafiq göstəriş verib.

Müşavirədə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi işinin real faktlardan istifadə edərək qəhrəmanlıq nümunələrinə əsaslanmaqla həyata keçirilməsinin, hərbi qulluqçuların Vətənə, dövlətə və Ali Baş Komandana misilsiz sədaqət ruhunda tərbiyə olunmasının vacibliyi qeyd olunub.

# Daxili İşlər naziri Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəisini şəxsi heyətə təqdim edib



Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə polis polkovniki Əlaslan Ağayev Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəisi vəzifəsinə təyin edilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 16-da nazir V.Eyvazov İnterpolun Milli Mərkəzi Bürosuna gedərək polis polkovniki Ə.Ağayevi şəxsi heyətə təqdim edib. Nazir xidməti fəaliyyətin daha səmərəli və effektiv təmin olunması üçün tələblərini diqqətə çatdırıb və tövsiyələrini verib.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə noyabrın 16-da Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 11 noyabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilib.

Sonra 2019-cu il dekabrın 23-nə təyin olunmuş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Mərkəzi Seçki Komissiyasına məşvərətçi səs hüquqlu üzv təyin edilmiş Mirzəzadə Aydın Böyükkişi oğlunun üzvlüyünün təsdiq olunmasına qərar verilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

### QƏRAR № 14/57

### Mərkəzi Seçki Komissiyasının 11 noyabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 11 noyabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*16.11.2019*

### QƏRAR № 14/58

### 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının məşvərətçi səs hüquqlu üzvünün təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2019-cu il 6 noyabr tarixli iclasının qərarı ilə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aydın Böyükkişi oğlu Mirzəzadə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) məşvərətçi səs hüquqlu üzv təyin olunmuş və onun məşvərətçi səs hüquqlu üzv kimi təsdiq edilməsi üçün müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxsin məşvərətçi səs hüquqlu üzv kimi təsdiq edilməsi üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 21-ci, 28.2-ci, 28.4-cü və 223-cü maddələrinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən məşvərətçi səs hüquqlu üzv təyin edilmiş Aydın Böyükkişi oğlu Mirzəzadə Mərkəzi Seçki Komissiyasında məşvərətçi səs hüquqlu üzv kimi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*16.11.2019*

### QƏRAR № 14/59

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 22.1-ci maddəsinə görə namizədlərin, qeydə alınmış namizədlərin, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yaxın qohumları, həyat yoldaşları və həyat yoldaşlarının yaxın qohumları (uşaqlar, valideynlər, övladlığa götürülənlər, qardaşlar, bacılar, nəvələr, babalar, nənələr) seçki komissiyasının həlledici səs hüquqlu üzvü kimi fəaliyyət göstərə bilməzlər.

Seçki Məcəlləsinin 22.4.1-ci maddəsinə görə seçki komissiyasının həlledici səs hüquqlu üzvü bələdiyyə üzvlüyünə namizəd olduqda onun səlahiyyətlərinə dərhal xitam verilir.

2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının üzvü Əliyarov Məhəmməd Ələkbər oğlunun, 51 saylı Qusar seçki dairəsi dairə seçki komissiyasının üzvü İbrahimov Cəlil Qeysəddin oğlunun, 54 saylı Şabran - Siyəzən seçki dairəsi dairə seçki komissiyasının üzvü Muradəlizadə Kamalə Cəbrayıl qızının, 61 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının üzvü Sadıqov Şirinbala Böyükkişi oğlunun, 68 saylı Cəlilabad kənd seçki dairəsi dairə seçki komissiyasının üzvləri Heydərov Elçin Əflatun oğlunun, Mustafayev Mehman Haxverdi oğlunun, Kazımov Adışirin Barat oğlunun, Həsənov Nadir Turab oğlunun, 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsi dairə seçki komissiyasının üzvü Heydərov Cahangir Qubad oğlunun, 77 saylı Astara seçki dairəsi dairə seçki komissiyasının üzvü Rzayev Nəsimi Məmməd oğlunun, 79 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının üzvü Zülfüqarov Davud Əvəz oğlunun, 89 saylı Göyçay - Ağdaş seçki dairəsi dairə seçki komissiyasının üzvü Ələsgərova Elmira Abdulla qızının, 111 saylı Zaqatala - Balakən seçki dairəsi dairə seçki komissiyasının üzvü Piriyev Tərlan Cavanşir oğlunun, 119 saylı Ağdam kənd seçki dairəsi dairə seçki komissiyasının üzvü İslamov Fikrət Mütəllim oğlunun yaxın qohumlarının namizədlikləri müvafiq bələdiyyələr üzrə irəli sürüldüyündən onların səlahiyyətlərinə 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərinin nəticələri rəsmi elan olunanadək müvəqqəti xitam verilməlidir.

Bundan başqa, 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının üzvü Məmmədov Natiq Abbas oğlunun, 47 saylı Mingəçevir seçki dairəsi dairə seçki komissiyasının üzvü Mahmudov Natiq Firdovsi oğlunun və 54 saylı Şabran - Siyəzən seçki dairəsi dairə seçki komissiyasının üzvü Camalov Rahib Şərif oğlunun namizədliyi müvafiq bələdiyyələr üzrə irəli sürüldüyündən onların səlahiyyətlərinə xitam verilməlidir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 22.4.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının üzvü Əliyarov Məhəmməd Ələkbər oğlunun, 51 saylı Qusar seçki dairəsi dairə seçki komissiyasının üzvü İbrahimov Cəlil Qeysəddin oğlunun, 54 saylı Şabran - Siyəzən seçki dairəsi dairə seçki komissiyasının üzvü Muradəlizadə Kamalə Cəbrayıl qızının, 61 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının üzvü Sadıqov Şirinbala Böyükkişi oğlunun, 68 saylı Cəlilabad kənd seçki dairəsi dairə seçki komissiyasının üzvləri Heydərov Elçin Əflatun oğlunun, Mustafayev Mehman Haxverdi oğlunun, Kazımov Adışirin Barat oğlunun, Həsənov Nadir Turab oğlunun, 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsi dairə seçki komissiyasının üzvü Heydərov Cahangir Qubad oğlunun, 77 saylı Astara seçki dairəsi dairə seçki komissiyasının üzvü Rzayev Nəsimi Məmməd oğlunun, 79 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının üzvü Zülfüqarov Davud Əvəz oğlunun, 89 saylı Göyçay - Ağdaş seçki dairəsi dairə seçki komissiyasının üzvü Ələsgərova Elmira Abdulla qızının, 111 saylı Zaqatala - Balakən seçki dairəsi dairə seçki komissiyasının üzvü Piriyev Tərlan Cavanşir oğlunun, 119 saylı Ağdam kənd seçki dairəsi dairə seçki komissiyasının üzvü İslamov Fikrət Mütəllim oğlunun yaxın qohumlarının namizədlikləri müvafiq bələdiyyələr üzrə irəli sürüldüyündən onların səlahiyyətlərinə 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərinin nəticələri rəsmi elan olunanadək müvəqqəti xitam verilsin.
2. 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının üzvü Məmmədov Natiq Abbas oğlunun, 47 saylı Mingəçevir seçki dairəsi dairə seçki komissiyasının üzvü Mahmudov Natiq Firdovsi oğlunun və 54 saylı Şabran - Siyəzən seçki dairəsi dairə seçki komissiyasının üzvü Camalov Rahib Şərif oğlunun namizədliyi müvafiq bələdiyyələr üzrə irəli sürüldüyündən onların səlahiyyətlərinə xitam verilsin.
3. 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərinin nəticələri rəsmi elan olunanadək Muradəliyev Ayaz Azad oğlu 54 saylı Şabran - Siyəzən, Quliyev Seymur Teymur oğlu 61 saylı Neftçala, Rəhimov Çingiz Həmid oğlu 89 saylı Göyçay - Ağdaş, Haqverdiyeva Rəna Məmmədəli qızı 111 saylı Zaqatala - Balakən seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.
4. Petrov Dinis Valeriyeviç 54 saylı Şabran - Siyəzən, Süleymanov Xəlil Əzizağa oğlu 67 saylı Cəlilabad şəhər, Quliyev Bəyzadə Vəliş oğlu və İmanov Sübhan İslam oğlu 68 saylı Cəlilabad kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*16.11.2019*

# Ceyhanda Azərbaycan nefti ilə 220-dən çox tanker yüklənib

*Əvvəli 1-ci səh.*

Bu il yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev ötən 15 il ərzində baş verən mühüm hadisələr sırasında BTC-nin fəaliyyətə başlamasının xüsusi əhəmiyyət kəsb etdiyini bir daha vurğulamışdır: "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin işə düşməsi çox böyük tarixi hadisədir. Əgər bu layihələr icra edilməsə idi, biz bu qədər vəsait əldə edə bilməzdik. Çünki bizim ixrac imkanlarımız məhduddur, açıq dənizlərə çıxışımız yoxdur və bizə mütləq neft-qaz kəmərləri lazımdır. Bu kəmərlərin tikintisi həm maliyyə, həm siyasi, həm beynəlxalq əməkdaşlıq baxımından çox mürəkkəb və çətin bir layihələr idi. Biz bunu da bacardıq. Bu gün iki kəmər vasitəsilə resurslarımız dünya bazarlarına göndərilir".

BTC Ko.-nun səhmdarları BP (Böyük Britaniya, 30,1 faiz), AzBTC (Azərbaycan, 25 faiz), "Şevron" (ABŞ, 8,9 faiz), "Ekvinor" (Norveç, 8,71 faiz), TPAO (Türkiyə, 6,53 faiz), "Eni" (İtaliya, 5 faiz), "Total" (Fransa, 5 faiz), "İtoçu" (Yaponiya, 3,4 faiz), "İnpeks" (Yaponiya, 2,5 faiz), "EksonMobil" (ABŞ, 2,5 faiz) və ONGC (Hindistan, 2,36 faiz) şirkətləridir. Layihəyə BP operatorluq edir. Bu şirkətdən aldığımız məlumata görə, ilin əvvəlindən BTC üzrə əməliyyat xərclərinə təqribən 95 milyon dollar, əsaslı xərclərə təqribən 25 milyon dollar vəsait sərf olunub.

Xatırladaq ki, uzunluğu 1768 kilometr olan BTC-nin gündəlik ötürücülük gücü 1,2 milyon barel təşkil edir. Kəmərin boruları əsasən 42 düymdür. Coğrafi vəziyyətdən asılı olaraq xəttin bəzi hissələri 46 və 34 düymlük borularla çəkilib.

Üç tranzit ölkə boyu BTC-nin 8 nasos stansiyası (2-si Azərbaycanda, 2-si Gürcüstanda, 4-ü Türkiyədədir) və 98 siyirtmə məntəqəsi var. Boru xətti Ceyhanda dəniz səviyyəsinə enməzdən əvvəl dağlarda 2830 metrlik ən yüksək nöqtəsinə qalxır. Kəmər öz marşrutu boyu bir neçə dağ silsiləsindən keçir. 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətləri ilə, yüzlərlə su hövzəsi ilə kəsişir.

BTC-ni səssiz kəmər də adlandırırlar. Çünki boruları torpağın altında, ən azı bir metr dərinlikdə basdırılıb. Bu, onun təhlükəsizliyini təmin edən şərtlərdən biridir. BTC-nin digər üstünlüyü Dardanel və Bosfor boğazlarından yan keçərək tankerlərin hərəkətinə mane olmamasıdır. BTC həm də tikintisinə başlandığı vaxtdan indiyədək dolayısı ilə (keçdiyi ərazilərdə həyata keçirilən sosial layihələrlə) və bilavasitə gətirdiyi gəlirlərlə bütün regiona xeyir-bərəkət bəxş edir.

BTC-nin Azərbaycanda qət etdiyi ərazilərdə havalar hələlik mülayim keçsə də, kəmərin marşrutunun digər hissələri - Gürcüstan və Türkiyə dağları artıq qarla örtülüb. Bununla belə, xəttin fəaliyyəti ahəngdar və təhlükəsiz şəkildə davam edir. Kəmərin bütün yerüstü obyektləri maneəsiz işləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## *AMEA-nın prezidenti:* "İran və Azərbaycan alimləri tarixi həqiqətlərin ortaya çıxarılması üçün birgə fəaliyyət göstərməlidirlər"





Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri, doktor Əbuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Nümayəndə heyətinə İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə və İran Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi daxildirlər.

Akademiyadan AZƏRTAC-a bildirilib ki, əvvəlcə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev qonaqları salamlayaraq, Azərbaycanla İran arasındakı tarixi dostluq münasibətlərindən söz açıb, bu əlaqələrin son dövrlərdə daha geniş vüsət aldığını qeyd edib. Bildirib ki, iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasətin nəticəsidir.

Akademik Ramiz Mehdiyev İran İslam Respublikasından olan nümayəndə heyətinin Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitində iştirakını və ölkə rəhbəri ilə görüşünü yüksək qiymətləndirərək, bu səfərin iki dost ölkə arasında elm və mədəniyyət sahəsində çoxtərəfli əlaqələrin təşkilinə təkan verəcəyini söyləyib.

Azərbaycan tarixinin hələ də dünya elmi ictimaiyyətində kifayət qədər tanınmadığını vurğulayan akademik bu gün ölkə alimlərinin tariximizi olduğu kimi təqdim etmək üçün yeni mənbələrin axtarışında olduqlarını deyib: "Düşünürəm ki, İranın arxiv sənədlərində də Azərbaycan tarixi ilə bağlı qiymətli materiallar vardır. İran və Azərbaycan alimləri birgə fəaliyyət göstərməli, tarixi həqiqətlərin ortaya çıxarılması, İran-Azərbaycan tarixinin daha dərindən öyrənilməsi üçün səylərini əlaqələndirməlidirlər".

Ölkə başçısı İlham Əliyevin İran dövləti ilə dostluq və əməkdaşlıq münasibətlərinə xüsusi önəm verdiyini deyən AMEA-nın rəhbəri bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün elm adamlarının bütün səylərini sərf edəcəklərini bildirib.

Sonra İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri, doktor Əbuzər İbrahimi Türkman çıxış edərək cəmiyyətin inkişafında elmin müstəsna rolundan danışıb.

Əbuzər İbrahimi Türkmanın sözlərinə görə, tarixən formalaşmış dostluq və əməkdaşlıq münasibətləri, ortaq adət-ənənələr, dini dəyərlər Azərbaycan və İran xalqlarının daha da yaxınlaşmasına zəmin yaradıb. İki ölkə arasında elm və mədəniyyət sahəsində mövcud olan əlaqələrin bundan sonra da davam etdirilməsi hər iki ölkənin inkişafına müsbət təsir göstərəcək.

Daha sonra Əbuzər İbrahimi Türkman İran Mədəniyyət Mərkəzi tərəfindən nəşr olunmuş kitabları akademik Ramiz Mehdiyevə təqdim edib.

AMEA tərəfindən qonağa "Azərbaycan muğamı miniatürlərdə" və İmadəddin Nəsiminin "Qəzəllər" kitabları hədiyyə olunub.

## *Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri:* "Prezident İlham Əliyev müasir dünyanın böyük dövlət xadimlərindən biridir"

### Abdullah Mətuq Əl-Mətuqa Tarix İnstitutunun fəxri doktoru diplomu təqdim olunub

Noyabrın 15-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda BMT Baş katibinin humanitar məsələlər üzrə xüsusi nümayəndəsi, Küveyt Əmirinin humanitar məsələlər üzrə müşaviri və Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri Abdullah Mətuq Əl-Mətuqa institutun fəxri doktoru diplomu təqdim olunub.



AZƏRTAC xəbər verir ki, görkəmli ictimai xadim Abdullah Mətuq Əl-Mətuq bu fəxri ada Azərbaycan-Küveyt dostluq əlaqələrinin inkişafında və Azərbaycan həqiqətlərinin beynəlxalq miqyasda müdafiəsindəki böyük xidmətlərinə görə layiq görülüb.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov Azərbaycanın xarici siyasətində İslam ölkələrinin mühüm yer tutduğunu bildirib, Abdullah Mətuq Əl-Mətuqun ictimai, siyasi fəaliyyətindən, xeyriyyəçilik işlərindən söz açıb, onun hər zaman Azərbaycan dövlətinin və xalqının yanında olduğunu deyib. Hər zaman İslam ölkələrinin problemləri ilə məşğul olan Abdullah Mətuq Əl-Mətuqun Azərbaycana sevgisi böyükdür. Xalqımızın yaxın dostu Abdullah Mətuq Əl-Mətuq Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevlə dəfələrlə görüşüb.

İki ölkə arasında möhkəm dostluq və qardaşlıq münasibətlərindən söz açan Abdullah Mətuq Əl-Mətuq Küveytin hər zaman bütün sahələrdə Azərbaycan dövlətinin və xalqının yanında olduğunu söyləyib. O, ölkəmizə hər səfərində Azərbaycanın sürətlə inkişaf etdiyini deyib. Qonaq bildirib ki, bütün Azərbaycan həqiqətlərini öz səlahiyyətləri çərçivəsində bəyan və müdafiə edir: "Prezident İlham Əliyevlə görüşlərim olub. O, müasir dünyanın böyük dövlət xadimlərindən biridir. Hazırda Dünya dini liderlərinin II Bakı Sammitində iştirak edirəm".

Abdullah Mətuq Əl-Mətuq institutun fəxri doktoru diplomuna layiq görüldüyündən məmnunluğunu bildirib və bunun gələcəkdə humanitar sahələrdə və xeyriyyəçilik fəaliyyətində stimul olacağını vurğulayıb.

## *Fələstin Prezidentinin müşaviri:* "Azərbaycan xalqının multikulturalizm təcrübəsi beynəlxalq səviyyədə yüksək qiymətləndirilir"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı noyabrın 15-də Dünya dini liderlərinin II Bakı Sammitində iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan Fələstin Prezidentinin dini işlər və islam münasibətləri üzrə müşaviri Mahmud Sudqi Əl-Həbbəş ilə görüşüb.



DQİDK-dan AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycanın dövlət-din modeli, müxtəlif dini icmaların dostluq və mehribanlıq şəraitində birgə yaşaması, cəmiyyətimizin tolerantlıq və multikulturalizm ənənələrinin bir nümunə olması barədə danışan Mübariz Qurbanlı qeyd edib ki, bu ənənələri daha da gücləndirmək üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl siyasət həyata keçirilir, dini icmaların inkişafı üçün onlara maddi yardımlar edilir. Azərbaycanda etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm və tolerantlıq sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi ənənənin daha da möhkəmlənməsinə yol açıb. Son illər Azərbaycan mədəniyyətlərarası dialoq, dünya mədəniyyətlərinin və sivilizasiyaların qarşılıqlı təsiri məkanına çevrilib. Mübariz Qurbanlı deyib ki, Dünya dini liderlərinin II Bakı Sammiti dünya ölkələrinin Azərbaycandakı tolerant mühitə olan münasibətinin real ifadəsidir.

Dini radikalizmə qarşı mübarizə tədbirlərindən də söz açan DQİDK sədri diqqətə çatdırıb ki, din adı altında fəaliyyət göstərən radikal dini qruplaşmalar bütün cəmiyyətlər üçün təhlükəlidir. Bu istiqamətdə əhəmiyyətli işlər görüldüyünü bildirən komitə sədri dünyada sülhün bərqərar olması və sabitliyin təmin olunmasının, dialoq və əməkdaşlıq mühitinin yaradılmasının vacibliyini və buna nail olmaq üçün ölkələr arasında qarşılıqlı anlaşma və təcrübə mübadiləsinin aparılmasının zəruriliyini vurğulayıb.

Fələstin Prezidentinin dini işlər və islam münasibətləri üzrə müşaviri Mahmud Sudqi Əl-Həbbəş ölkəmizə ilk dəfə səfər etdiyini və paytaxtımızın çox gözəl şəhər olduğunu deyib. Müşavir bildirib ki, Azərbaycan xalqının zəngin multikulturalizm təcrübəsi, nümunəvi tolerant keyfiyyətlərə sahib olması beynəlxalq səviyyədə də tanınır və yüksək qiymətləndirilir. İki ölkə arasındakı mövcud əlaqələrin gələcəkdə də möhkəmlənməsi və davam etməsində maraqlı olduğunu ifadə edən M.S.Əl-Həbbəş qeyd edib ki, Fələstində əhalinin dini maarifləndirilməsinə böyük diqqət yetirilir, dinin düzgün təbliği, insanların dini radikalizmə meyil etmələrinin qarşısının alınması üçün maarifləndirmə işləri aparılır. O, bunun həm də cəmiyyətin təhlükəsizliyinin təmin edilməsi baxımından çox böyük əhəmiyyət kəsb etdiyini dilə gətirib.

Fələstin Dövlətinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərimin də iştirak etdiyi görüşdə iki dövlətin müvafiq qurumları arasında əməkdaşlıq əlaqələrinin qurulması və gələcəkdə genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

Sonda qonaqlara DQİDK tərəfindən ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ərəb dilində nəşr olunmuş kitablar təqdim edilib.

Səfər təəssüratları

## Azərbaycan həqiqətləri Küveytdə

Prezident İlham Əliyevin çağırışları, tövsiyə və tapşırıqları ilə Azərbaycanın tarix elmi saxtalaşdırmalardan və təhriflərdən təmizlənir. Bunun nəticəsidir ki, A.A.Bakıxanov adına Tarix İnstitutunda Qarabağın, Naxçıvanın, İrəvan xanlığının, xalqımıza qarşı soyqırımıların, itirilmiş torpaqlarımızın tarixinə dair onlarla qiymətli əsərlər, ilk mənbələr nəşr olunmuşdur.



Ölkə rəhbərinin birbaşa göstərişi ilə yazılmış "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabı və bu seriyadan olan digər əsərlər müxtəlif dillərə tərcümə edilərək dünya ölkələrində yayılmaqda davam etdirilir.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovun rəhbərliyi ilə institutun bir qrup əməkdaşının (elmi katib, dosent İradə Əliyeva, Qarabağ tarixi şöbəsinin müdiri, dosent Güntəkin Nəcəfli, şərqşünas, dosent Gülnur Mahmud və Sənaye, Mənəvi və Mədəni Tərəqqi naminə Beynəlxalq Təşkilatın rəhbəri Elçin Nəsirli) bu günlərdə Küveyt Dövlətinə elmi-işgüzar səfəri reallaşdı. Tarix İnstitutunun və Küveytdəki Azərbaycan səfirliyinin birgə hazırladığı proqram çərçivəsində reallaşan səfərin məqsədi Azərbaycanın itirilmiş torpaqlarının tarixini əks etdirən, erməni saxtakarlığını ifşa edən ərəb dilinə tərcümə edilmiş "İrəvan xanlığı" və bu seriyadan olan "Erməni vandallarının yox etdiyi İrəvan məscidləri", "İrəvan qalası - qəhrəmanlıq qalası", "Erməni vandallarının yox etdiyi Xan sarayı", "Cuxursəd hakimləri və İrəvan xanları" və "Real tarix və Böyük Ermənistan uydurması" kitablarının elmi ictimaiyyətə, oxucu kütləsinə və müxtəlif informasiya vasitələrinə çatdırılması olmuşdu.

Küveytdə 10 min nəfərdən çox erməninin yaşadığını, erməni lobbisinin hər zaman Azərbaycan-Küveyt dostluq əlaqələrinə əngəl olmağa çalışdığını və Azərbaycan tarixi, o cümlədən Qarabağ məsələsi ilə bağlı saxta məlumatlar yaydığını nəzərə alaraq Azərbaycan həqiqətlərinin islam ölkələrinə çatdırılması, çap olunmuş kitabların təqdimatının keçirilməsi xüsusi diqqət mərkəzinə götürülmüşdür. Hələ 2019-cu ilin fevralında akademik Yaqub Mahmudovun rəhbərliyi ilə institutun bir qrup əməkdaşı Misirin paytaxtı Qahirə şəhərində elmi işgüzar səfərdə olmuş və müxtəlif müəssisələrdə kitabların təqdimatını keçirmişdir. Tarix İnstitutu ilə Misirdəki Azərbaycan səfirliyi arasında əldə olunan razılaşmaya görə burada "Azərbaycanşünaslıq mərkəzi" açılmış və hazırda həmin mərkəzdə 200 nəfərə yaxın gənc Azərbaycan dilini öyrənir.

### Küveyt "İslam araşdırmaları və Quran elmləri departamenti"nin əməkdaşları öz təəccüblərini gizlədə bilmədi

Tarix İnstitutunun nümayəndə heyəti əvvəlcə Küveyt Dövləti Vəqflər Nazirliyinin nəzdində fəaliyyət göstərən "İslam araşdırmaları və Quran elmləri departamenti"nin direktoru doktor Fəhd Əl-Canfavi ilə görüşdü. Görüşdə akademik Yaqub Mahmudov Küveytin Azərbaycanla dost, qardaş ölkə olduğunu bildirdi. Akademik islamın hələ xəlifə Osmanın dövründən (VII əsrin ortaları) Azərbaycanda yayıldığını və bunu sübut edən tarixi faktların olduğunu, ümumiyyətlə, Azərbaycanın Qafqazda və Mərkəzi Asiyada ilk islam ölkəsi olduğunu qeyd etdi. Və buna görə də Azərbaycanın ağır günlər yaşadığını, bolşevik Rusiyasının burada islam dini ilə bağlı olan nə varsa hər şeyi məhv etməyə çalışdığını xüsusi vurğuladı. Məscidlərimizin bağlanması, görkəmli islam alimlərimizin və din xadimlərimizin məhv edilməsi və ya Sibirə sürgünə göndərilməsi, Qurani-Kərimin tonqallarda yandırılması və bu kimi həyata keçirilən qanlı tədbirlərə baxmayaraq Azərbaycan xalqı islamı qoruyub saxladı. Akademik Yaqub Mahmudov Ulu Öndər Heydər Əliyevin sovetlər dönəmində dağıdılmış "Bibi Heybət" məscidini yenidən qurduğunu, indi Azərbaycanda yüzlərlə məscidin olduğunu, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məscidlərin bərpası ilə bağlı məsələlərə xüsusi diqqət yetirdiyini vurğuladı.

Akademik müasir Ermənistan Respublikasının ərazisinin tarixi Azərbaycan torpağı olduğunu, vaxtilə Azərbaycan dövləti olan İrəvan xanlığında 300-dən çox, İrəvan şəhərində isə 8 məscidin olduğunu, lakin 1918-ci ildə Azərbaycan torpaqlarında Cənubi Qafqazda tarixdə ilk dəfə erməni dövləti yaradıldıqdan sonra bu məscidlərin erməni vandalları tərəfindən tamamilə məhv edildiyini qeyd etdi. Hazırda Azərbaycan Respublikasının işğal olunmuş Qarabağ torpaqlarında erməni vandalizminin davam etdiyini, məscidlərimizin və digər tarixi abidələrimizin məhv olunduğunu vurğuladı. Bu zaman "İslam araşdırmaları və Quran elmləri departamenti"nin direktoru doktor Fəhd Əl-Canfavi və qurumun digər əməkdaşları öz təəccüblərini gizlədə bilmədilər. Sonra bütün bunları sübut edən videoçarx göstərildi.

Görüşün sonunda akademik Yaqub Mahmudov Tarix İnstitutunun ərəb dilində nəşr etdirdiyi bütün kitabları və videoçarxı "İslam araşdırmaları və Quran elmləri departamenti"nə təqdim etdi.

Nümayəndə heyətinin növbəti görüşü elə həmin gün buradakı Azərbaycan səfirliyində oldu. Görüşdə Yaqub Mahmudov səfirliyin təşkil etdiyi səfər proqramına görə öz təşəkkürünü bildirdi.

Səfir Elxan Qəhrəmanov isə öz növbəsində bu kimi tədbirlərin keçirilməsinin hər bir Azərbaycan vətəndaşı üçün şərəf işi olduğunu, tarixi həqiqətlərin islam dünyasına çatdırılmasının zəruriliyini vurğuladı.

### Küveyt televiziyasının "Sabah Al-Xeyir Küveyt" və "Scope TV" adlı canlı proqramlarında Azərbaycan həqiqətləri bəyan edildi

Hər iki canlı proqramda akademik Y.Mahmudov Azərbaycan tarixi ilə bağlı bir çox məqamlara toxundu, 1918-ci ildə ermənilərə Azərbaycanın qədim şəhəri İrəvanla birlikdə 9 min kvadratkilometr ərazi verildiyini qeyd etdi. İndi həmin torpaqlarda bir nəfər də olsun azərbaycanlının yaşamadığını qeyd etdi. Akademikin çıxışı zamanı arxa fonda "İrəvan xanlığı" kitabının nümayiş etdirilməsi də Azərbaycan həqiqətlərinin Küveyt ictimaiyyətinə çatdırılması üçün çox təqdirəlayiq bir hadisə idi.

Səfərin ikinci günü nümayəndə heyətinin Küveyt Milli Kitabxanasının direktoru Şeyxa Raşa Naif Əl-Cabir Əl-Sabahla və bir qrup əməkdaşı ilə görüşü oldu. Burada kitabların təqdimatı keçirildi.

Küveyt Milli Kitabxanasının rəisi yaxınlarda Tarix İnstitutunun hədiyyə etdiyi bütün nəşrlərin kitabxananın elektron kataloquna daxil ediləcəyini, həmçinin institutun nəşrlərinin əsas girişdəki sərgidə də nümayiş etdiriləcəyini bildirdi. Bundan başqa, görüşdə Tarix İnstitutu ilə Küveyt Milli Kitabxanası arasında əməkdaşlıq müqaviləsinin imzalanması barədə razılıq da əldə olundu. Nümayəndə heyəti qarşı tərəfin Azərbaycan tarixi ilə bağlı bütün suallarını ətraflı cavablandırdı.

Səfər ərəfəsində Azərbaycan həqiqətlərini bəyan edən kitablar Küveytdə BMT Baş katibinin humanitar məsələlər üzrə nümayəndəsinə də təqdim edildi. Nümayəndə heyətimiz Küveyt Dövləti Əmirinin Humanitar məsələlər üzrə müşaviri, Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri, BMT Baş katibinin humanitar məsələlər üzrə nümayəndəsi doktor Abdullah Əl-Mətuq ilə də görüşdü.

"Dəyirmi masa" ətrafında keçirilən bu görüşdə əsas diqqət Azərbaycanın itirilmiş torpaqlarının tarixini əks etdirən, erməni saxtakarlığını ifşa edən ərəb dilinə tərcümə olunmuş "İrəvan xanlığı" və digər kitabların təqdimatına yönəldi.

Müzakirə zamanı doktor Abdullah Əl-Mətuq Azərbaycan həqiqətlərini öz səlahiyyətləri çərçivəsində bəyan və müdafiə edəcəyini bildirdi. O, dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü, onun müasir dünyanın böyük dövlət xadimlərindən biri olduğunu, Azərbaycanda gedən sürətli inkişafdan məmnun qaldığını bildirdi və həmçinin Şeyxülislam Allahşükür Paşazadə ilə dostluq əlaqələrindən danışdı.

Görüşün sonunda akademik Yaqub Mahmudov Azərbaycan nümayəndə heyətini səmimi qəbul etdikləri, Azərbaycan həqiqətləri ilə dərindən maraqlandıqları üçün qarşı tərəfə təşəkkür etdi.

### Azərbaycan həqiqətləri Küveyt Dövlət Universitetində də səsləndirildi

Öncə universitetin Sosial elmlər fakültəsinin dekanı doktor Hamud Əl-Qaşaanla görüş oldu.

Doktor Əl-Qaşaan tez-tez Bakıya səfər etdiyini və Azərbaycanı çox sevdiyini dedi. "İrəvan xanlığı" kitabının ingilis dilindəki variantını oxuduğunu bildirdi. Keçən il fakültədə "Azərbaycan haqqında nə bilirəm" mövzusunda müsabiqə keçirdiyini, indi isə "İşğal edilmiş Azərbaycan torpaqları" haqqında inşa müsabiqəsi elan etdiyini və bu müsabiqənin nəticəsinə görə fərqlənən tələbənin Azərbaycana yaradıcı səfərə göndəriləcəyini bildirdi.

Doktor Əl-Qaşaan "İrəvan xanlığı" kitabının artıq müvafiq şöbəyə verildiyini və tədris prosesində ondan istifadə olunacağını söylədi. O, müasir gənclərin kitabları daha çox digital şəkildə oxuduğunu nəzərə alaraq bu nəşrlərin elektron şəkildə tələbələrə çatdırılacağını qeyd etdi. Bundan əlavə, doktor Əl-Qaşaan Azərbaycana səfər etdikdən sonra Azərbaycan xalqının özünü müdafiə etdiyini, Ermənistanın isə təcavüzkar ölkə olduğunu xüsusi vurğuladı.

Akademik Yaqub Mahmudov "İrəvan xanlığı" kitabının bir sıra dünya dillərinə tərcümə edildiyini, ermənilərin əvvəllər Balkan yarımadasında yaşadığını, Asiya qitəsinə isə gəlmə olduğunu, Rusiya imperiyası tərəfindən Azərbaycan torpaqlarına köçürüldüyünü və İrəvan xanlığının ərazisində yerləşdirildiyini qeyd etdi.

Sonra fakültənin mühazirə salonunda kitablarımızın təqdimat mərasimi keçirildi. Fakültənin professor, müəllim və tələbə heyətinin qarşısında çıxış edən akademik Y.Mahmudov ilk növbədə gənclərə müraciət edərək Azərbaycanla Küveytin qardaş ölkə olduğunu vurğuladı və dedi: "Azərbaycanın çox qədim, 5 min illik tarixi var. Biz böyük imperiyalar yaratmışıq. Orta əsrlərdə Azərbaycan imperiyalarının sərhədləri İran (Ərəb) körfəzinə qədər uzanıb.

Azərbaycan Cənubi Qafqazda ən böyük islam dövlətidir. Son tədqiqatlar sübut edir ki, 728-ci ildə Azərbaycanda ilk məscid tikilib. Alimlərimiz Bağdadda, Hələbdə, Dəməşqdə dərs deyiblər, elmlə məşğul olublar. Amma orta əsrlər başa çatdıqdan sonra tarixdə dəyişikliklər oldu. XIX əsrin əvvəllərində keçmiş Rusiya imperiyası Qafqazı işğal etməyə başladı. Bununla da islamın ən faciəli qanlı tarixi başladı. Bizim bu gün təqdimatını keçirdiyimiz bu kitablar həmin tarixdən bəhs edir".

Görüşün sonunda müəllim və tələbə heyətini maraqlandıran çoxsaylı suallara Azərbaycan nümayəndə heyəti tərəfindən ətraflı cavablar verildi. Tarix İnstitutunun ərəb dilində nəşr etdirdiyi bütün kitablar və videoçarx Küveyt Dövlət Universitetinin Sosial elmlər fakültəsinə təqdim edildi.

***Güntəkin NƏCƏFLİ,***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent, Dövlət mükafatı laureatı***

## Lahıcda 228 il yaşı olan Bədöyün məscidi təmir ediləcək

Dövlət Turizm Agentliyinin maliyyə dəstəyi ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Lahıc qoruğu ərazisindəki Bədöyün məscidində arxeoloji tədqiqatlara başlayıb.

AZƏRTAC xəbər verir ki, Dövlət Turizm Agentliyi və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu arasında imzalanan memoranduma əsasən təmir işlərinə başlamazdan əvvəl abidədə arxeoloji tədqiqat işləri aparılır. Arxeoloji tədqiqatlara AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, Lahıc arxeoloji ekspedisiyasının rəisi, tarix üzrə fəlsəfə doktoru Akif Quliyev rəhbərlik edir. İlkin araşdırmalar zamanı məscidin döşəməsinin alt hissəsindən müxtəlif dövrlərə aid tikili qalıqları aşkarlanıb. Hazırkı məscid binasından əvvəl bu yerdə daha üç binanın olduğu müəyyən edilib. Aparılan araşdırmalar abidənin tarixi, ilkin memarlığı kimi məsələlərə aydınlıq gətirəcək.

Qeyd edək ki, abidə 1791-ci ildə inşa olunub. Abidənin üzərində səkkiz kitabə mövcuddur. Bunların yeddisi ərəb dilində, biri isə ərəb qrafikası ilə Azərbaycan dilindədir. İki kitabədə hədislərdən sonra Hicri 1295-ci il (1878-ci il) və Hicri 1323-cü il (1905-ci il) tarixləri qeyd edilib.

Arxeoloji tədqiqatlardan sonra məscid öz orijinal formasına uyğun təmir-bərpa və konservasiya ediləcək. İşlər başa çatdıqdan sonra isə qədim məscid yenidən istifadəyə veriləcək.

# Elgünün örnək ömrü...

## Şəhid E.İsmayılovun xatirəsinə həsr edilən yaradıcılıq müsabiqəsinə yekun vuruldu

Şəhidlik zirvəsi hünər, qeyrət simvoludur. Bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır.

Belə şərəfli ömür sahiblərindən biri də 45-cü ad gününü onsuz keçirdiyimiz, şəhidliyinin 25 ili tamam olan Elgün Dağıbəyi oğlu İsmayılovdur.

Ömrünün 20-ci baharında Murovdağın zirvəsində şəhidlik məqamına yüksələn Elgün İsmayılovun əziz və unudulmaz xatirəsi yalnız dünyaya göz açdığı ailədə, oxuduğu məktəbdə deyil, həm də çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında daim anılır, ehtiramla yad edilir.

Qarabağda, eləcə də Vətənimizin digər guşələrində işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda aparılan mübarizə müharibə mərhələsinə keçəndə igid oğullarımız silaha sarılıb döyüşlərə yollandılar. Onların arasında əməlinin və hünərinin ucalığında dayanan Elgün adlı bir gənc də var idi. 1974-cü ildə Bakı şəhərində anadan olan, çalışdığı "Azərbaycan" qəzetində qısa müddət ərzində hamıya qaynayıb-qarışan, torpaqlarımızın mənfur ermənilər tərəfindən işğalına dözməyən Elgün 1993-cü ildə həqiqi hərbi xidmətə çağırıldı. O, həmin ilin oktyabrında "N" saylı hərbi briqadanın tərkibində cəbhə bölgəsinə - Füzuli rayonuna göndərildi. Horadizin düşməndən azad edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə komandanlıq tərəfindən mükafatlandırıldı. 1994-cü ilin yanvarında hərbi briqadanın yeri Kəlbəcər bölgəsinə, Murov dağına dəyişdirildi. Döyüşçü dostları



Elgünü igid və qorxmaz əsgər kimi tanıyırdılar. Komandanlığın onun barəsində verdiyi arayışda göstərilir ki, Elgün İsmayılov mürəkkəb relyefə malik Murov dağında bölüyün keçirdiyi 20 əməliyyatdan 16-da iştirak etmişdir. 1994-cü il aprelin axırlarında keçirilmiş hərbi əməliyyata görə Elgün İsmayılov komandanlığın fəxri fərmanına layiq görülmüşdür. Həmin il mayın 25-dən 26-na keçən gecə Murovun "Ömər" yüksəkliyində düşmən arxasına keçərək vacib məlumatları gətirməyə gedən 4 nəfərlik kəşfiyyat dəstəsinin tərkibində Elgün də var idi. Cəsur əsgər burada düşmən hücumuna məruz qalaraq qızğın döyüşlərdə şəhidlik zirvəsinə yüksəldi.

İş yoldaşları Elgünün xatirəsini hər zaman əziz tuturlar. Hər il doğum günündə redaksiya kollektivinin onun xatirəsinə həsr etdiyi tədbir İkinci Şəhidlər xiyabanındakı müqəddəs məzarını ziyarətlə başlayır. Bu il də Elgünün xatirəsi ona doğma olan kollektivi tərəfindən ehtiramla yad edildi. Şəhidin məzarı üzərinə tər çiçək dəstələri düzüldü və ruhuna dualar oxundu.

Sonra anım mərasimi redaksiyada davam etdirildi. Tədbiri "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov açaraq bildirdi ki, ölkənin qüdrətini göstərən əsas cəhətlərdən biri onun güclü ordusu, əsgərinin vətənpərvərlik və döyüş ruhudur. Bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi müzəffər Azərbaycan Ordusunun hər bir əsgərinin döyüş əzmi, vətənpərvərlik ruhu ən yüksək səviyyədədir. Bu, son illərdə orduya göstərilən hərtərəfli diqqət və qayğının təcəssümüdür. Ən modern silah-sursat, hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

"Azərbaycan" qəzeti daim ordu quruculuğu prosesində aparılan islahatlardan, mütərəqqi yeniliklərdən, əsgər və zabitlərin yüksək döyüş əzmindən, cəbhənin ön xəttindən, qarlı zirvələrdən, döyüş səngərlərindən reportajlar hazırlayıb oxuculara təqdim edir: "Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını uca tutan, bu yolda həyatlarını qurban verən igidlərin xatirəsini anmağa daim borcluyuq. Onlar sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər. Bizlər də jurnalist kimi bu işdə üzərimizə düşən vəzifənin məsuliyyətini dərk edirik və mənəvi borcumuzu layiqincə həyata keçiririk".

Baş redaktor vurğuladı ki, Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərimizin ömür yolu bugünkü gənclərimizə örnəkdir. Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olmuş Elgün İsmayılovun anadan olduğu gün isə onu tanıyanların hər biri üçün qürur doğuran tarixdir.

Şəhid Elgünün çox qısa, lakin mənalı həyat və döyüş yolundan söz açan Bəxtiyar Sadıqov diqqətə çatdırdı ki, 2003-cü ildən başlayaraq hər il redaksiyada Elgünün xatirəsinə həsr edilmiş ənənəvi yaradıcılıq müsabiqəsi keçirilir. Artıq 17-cı dəfə keçirilən müsabiqəyə təqdim olunan yazılar bir neçə aspektdən dəyərləndirilir. Eyni zamanda, müsabiqə həm də qəzet əməkdaşlarını vətənpərvərliyə, torpağa məhəbbət mövzusunda yazmağa ruhlandırır. "Azərbaycan" qəzetinin səhifələrində belə yazıların mütəmadi işıq üzü görməsini kollektiv də vacib sayır. Bu cür müsabiqələrin keçirilməsinin əhəmiyyəti həm də ondadır ki, burada yaradıcılığa geniş meydan verilir.

Müsabiqənin yekunlarına görə redaksiyanın 4 əməkdaşı - Rəşad Baxşəliyev, Elçin Cəfərov, Yasəmən Musayeva və Zöhrə Fərəcova qalib elan edilərək fəxri diplom və pul mükafatları ilə təltif olundular.

Qaliblər layiq görüldükləri mükafata görə təşəkkürlərini və bundan sonra da vətənpərvərlik mövzusunda yaradıcılıqlarını davam etdirəcəklərini bildirdilər.


AZPETROL

"Azpetrol" şirkətinin rəhbərliyi və kollektivi Azərbaycan xalqını 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə təbrik edir.

Şirkət xalqımıza sülh, əmin-amanlıq, birlik, firavan həyat və xoş gələcək arzulayır!




Bayramınız mübarək!


# Əbədi və sarsılmaz müstəqillik

Əvvəli 1-ci səh.

### Həlledici proseslər Heydər Əliyevin qayıdışından sonra başladı

Mənəvi və siyasi təqiblərə mətinliklə sinə gərən Heydər Əliyev hətta həyatı üçün cəhd edilən sui-qəsdlərdən çəkinməyərək sovet rəhbərliyi ilə cəsarətlə mübarizə apardı və doğma vətəninə - Azərbaycana gəldi. Beləliklə, 1969-1982-ci illərdə Azərbaycanın gələcək dövlət müstəqilliyinin bünövrəsini qoyan Heydər Əliyev xalqımızın ciddi və taleyüklü problemlər qarşısında dayandığı bir dövrdə öz həyatını təhlükə qarşısında qoyaraq milli mübarizə meydanına atıldı, misilsiz tarixi xidmətlər göstərdi, Azərbaycanın müstəqilliyinin əldə olunmasında, milli dövlətçiliyinin yaşadılmasında, milli birliyinin qorunub saxlanılmasında tarixi missiya həyata keçirdi.

Azərbaycanda dövlət müstəqilliyi yolunda mücadilə 1988-ci ildə xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər Heydər Əliyevin Azərbaycana qayıdışından sonra cərəyan etdi. Heydər Əliyevin gəlişindən sonra milli dirçəliş prosesi bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilərək, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olundu. Ulu Öndərin Naxçıvanda parlament seçkilərinə qatılması və qalib gəlməsi, respublika ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana üz tutması, Heydər Əliyevlə təmasa can atması, insanlarla gündən-günə genişlənən çoxsaylı və kütləvi görüşlər Azərbaycanda milli azadlıq hərəkatının vüsət almasına və getdikcə daha mütəşəkkilləşməsinə müsbət təsir göstərməyə başladı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanı müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. Naxçıvan Ali Məclisinin sonrakı iclaslarının birində Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi. Ali Məclisin qəbul etdiyi qərarda SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliyinin 20 Yanvar faciəsinə görə birbaşa məsuliyyət daşıdıqları göstərildi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası Heydər Əliyevin başlatdığı bu prosesin yekun nəticəsi olmalı idi. Görülən hər bir iş, atılan hər bir addım isə Azərbaycan xalqını bu nəticəyə - dövlət müstəqilliyinin bərpa olunmasına yaxınlaşdırırdı. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

### Tarix Ulu Öndərin haqlı olduğunu sübut etdi

Müstəqillik mövzusu və bu istiqamətdə gərəkən addımlar Ulu Öndərin bütün çıxışlarının başlıca leytmotivi idi. Xüsusən Azərbaycan Ali Sovetinin iclaslarında Heydər Əliyev bütün çıxışlarında Azərbaycanın dövlət müstəqilliyinin qaçılmaz proses olduğunu bəyan edirdi. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin birinci sessiyasında təkidlə söz alan Ulu Öndər kommunist partiyası hakimiyyətinin sonunun çatdığını, SSRİ-nin tezliklə dağılacağını və respublikalarda başlanan müstəqillik mübarizələrinin qalib gələcəyinin dönməz bir proses olduğunu bəyan etdi. Ali Sovetin 1991-ci il martın 7-də keçirilən sessiyasında Heydər Əliyev Azərbaycanın milli müstəqilliyi və suverenliyi məsələsinə toxunaraq, müstəqilliyə çatmağın yollarını, əsas vasitələrini, demokratik dövlət quruculuğunun prinsiplərini göstərdi.

Ali Sovetdəki tarixi çıxışlarında Heydər Əliyev respublika rəhbərliyinin imzalamağa hazırlaşdığı ittifaq müqaviləsinin Azərbaycan üçün tam yararsızlığını yeni ittifaqa girməyin və bunun üçün hər hansı referendum keçirməyin əleyhinə olduğunu bildirirdi. 1991-ci il iyulun 19-da kommunist partiyası sıralarını tərk edən Heydər Əliyev Azərbaycanın rəhbərliyini xalqın haqlı tələblərini qulaqardına vurmamağa, kommunist partiyasının totalitar idarəçiliyinə son qoymağa çağırdı.

Tarix Heydər Əliyevin siyasi proseslərin gedişatını böyük uzaqgörənliklə gördüyünü və haqlı olduğunu sübut etdi. Hadisələr göstərdi ki, 1990-cı ildən başlayaraq SSRİ-nin və kommunist idarəçiliyinin perspektivsizliyi, Azərbaycanın müstəqil, demokratik dövlət qurmasının mümkünlüyü və müstəqilliyi haqqında Heydər Əliyevin uzaqgörən bəyanatları, bunu əsaslandıran siyasi baxışları öz işini görmüş, gələcək proseslərin gedişinə həlledici təsir göstərmişdi. Moskvadakı avqust hadisələrindən dərhal sonra Naxçıvan ərazisində kommunist partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Bu proses bütün Azərbaycana sirayət etdi və beləliklə, sovet hakimiyyət orqanları xalqın əzmi qarşısında geri çəkilməli oldu. Proseslərin gedişatı göstərirdi ki, respublika rəhbərliyi xalqın milli azadlıq mübarizəsinin, müstəqil və demokratik dövlətçilik hərəkatının qarşısında tab gətirmək iqtidarında deyil. Respublika Ali Sovetinin 1991-ci il avqustun 30-da növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etmək məcburiyyətində qalması faktı bu həqiqəti bir daha sübut etdi. Ali Sovetin 1991-ci il 30 avqust tarixli iclasında bəyanatla yanaşı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Konstitusiya Aktının layihəsini iki həftə müddətində hazırlamaq barədə qərar qəbul edildi. Lakin respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitdi. Siyasi hakimiyyət Heydər Əliyev və Azərbaycan xalqının müstəqil və demokratik dövlətçilik uğrunda apardıqları mübarizənin qarşısında tab gətirə bilməyərək 1991-ci il oktyabrın 18-də nəhayət ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının" qəbul edilməsinə razılıq verdi. 1991-ci il oktyabrın 19-da Azərbaycan Ali Sovetinin sessiyasına ünvanladığı müraciətdə bu hadisəni yüksək qiymətləndirən Heydər Əliyev yazırdı: *"Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atdı".*

### Dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edən siyasət

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Fəqət, müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. 1991-1993-cü illərdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş gördülər, əksinə, ölkəni dünyada gedən bütün proseslərdən uzaq salaraq təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər. Bütün bunlar isə nəticə etibarilə müstəqilliyin məhvinə aparırdı. Belə bir vəziyyətdə Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin tələb və istəyi ilə hakimiyyətə gələn xalqımızın böyük oğlu Heydər Əliyev müstəqil dövlətçiliyimizi, suverenliyimizi bütün təhlükələrdən, təhdidlərdən xilas etdi. 1993-cü ilin iyunundan dövlətimizin idarəçilik sükanının arxasına keçən Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoydu, ən əsası Azərbaycanın dövlət müstəqilliyini təmin etdi.

Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyevin ideyalarının başlıca qayəsini təşkil edir. Son 16 ildə ölkəmizdə həyata keçirilən siyasi kursun mahiyyətində məhz bu amil dayanır. Heydər Əliyev siyasətini layiqincə yaşatmaqla yanaşı, həm də dövlət idarəçiliyində və siyasət meydanında yeni məktəbin banisi olan Prezident İlham Əliyevin həyata keçirdiyi dərin məzmunlu və çoxşaxəli siyasi kurs isə Azərbaycanın dövlət müstəqilliyini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Ulu Öndərin neft strategiyasının uğurla reallaşması, iri enerji layihələrinin işə düşməsi və yeni iqtisadi layihələrə start verilməsi, eləcə də regionda cərəyan edən proseslərlə bağlı ölkə rəhbərinin uzaqgörən siyasi yanaşmaları Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

## "Azərsu" ASC-nin sədri Mingəçevirdə vətəndaşları qəbul edib

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov noyabrın 15-də Mingəçevir şəhərində Mingəçevir və Yevlax şəhərlərindən olan sakinləri qəbul edib.

Mingəçevir şəhəri Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Mingəçevir şəhərindən və Yevlax rayonundan 36 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri əsasən, içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşı dinləyən "Azərsu" ASC-nin sədri müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# Emal olunan xurmaya tələbat çoxdur

Əvvəli 1-ci səh.



Bunun sayəsində ötən il ölkəmiz 200 min ton xurma ixrac edib. Belə ki, həmin rəqəm 2017-ci illə müqayisədə 17 faiz çoxdur. Cari ildə xurma istehsalının daha 15 faiz artacağı proqnozlaşdırılır.

Xurma istehsalı çoxaldıqca bu məhsulun dünya bazarına ixracı da artır. Hazırda Azərbaycan dünyada xurma istehsalı və ixracına görə beşinci yerdədir. Lakin ölkəmizdə bu sahənin dinamik inkişafı qarşıdakı illərdə daha yüksək pilləyə yüksəlməyə imkan verəcək.

Qeyri-neft sektoru üzrə ixracın 0,15 faizi xurmanın payına düşür. Ötən il bu sektor üzrə ixrac 1 milyard 689 milyon dollar təşkil edib. İxrac olunan qeyri-neft məhsullarında 177,4 milyon dollarla pomidor istehsalı birinci, 118 milyon dollarla qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) ikinci, 114,5 milyon dollarla xurma ixracı üçüncü yerdə qərarlaşıb.

Hazırda xurma ixracında əsas alıcı ölkələr Rusiya, Ukrayna, Belarus, Moldova, Qazaxıstandır. Bir sıra ərəb ölkələri də Azərbaycanda istehsal olunan xurmanı idxal edirlər. Avropa ölkələri isə daha çox emal olunan quru xurma almağa üstünlük verir. Xüsusilə Almaniya və Hollandiyada bu məhsula tələbat daha yüksəkdir. Elə ənənəvi bazarımız olan Rusiya, Ukrayna və digər MDB ölkələri də quru xurma almağa maraq göstərir.

Məlumdur ki, Avropa ölkələrinə məhsul ixracı çətin prosesdən keçir. Burada standartlar MDB ölkələri ilə müqayisədə daha yüksəkdir. Avropa standartlarına əməl olunarsa, təkcə Almaniyaya ildə təqribən 2 milyon dollar dəyərində quru xurma ixrac etmək mümkündür. Hazırda emal edilən quru xurma Almaniya ilə yanaşı, Avropa İttifaqı dövlətlərindən olan Baltikyanı ölkələrə də ixrac olunur. Xarici bazarda tələbat yüksək olduğu üçün ötən il 30 faizlik artım müşahidə edilib.

Avropa ölkələrinə məhsul ixracı üçün çoxsaylı uyğunluq və gigiyenik sertifikatlar tələb olunur. Bu səbəbdən də Avropa bazarlarına məhsul ixrac edərkən onların tələbləri yerinə yetirilməlidir. Ölkəmizdə Balakən və Göyçay rayonlarında yarıqurudulmuş və ya qurudulmuş xurma üzrə yeni istehsal müəssisələri yaradılıb. Lakin bunların istehsal etdikləri məhsulun keyfiyyəti Avropa standartlarına tam cavab vermir. Üstəlik, onların istehsal gücü də xarici tələbatın ödənilməsi üçün yetərli deyil. Bunun üçün yüksək texnologiyalarla təmin olunan yeni müəssisələrin açılması zəruridir.

Dünyada xurmadan bir çox qiymətli məhsullar hazırlanır. Xurma qurusu, bəhməz çox qiymətli məhsul sayılır və əczaçılıqda geniş istifadə olunur. Əgər yeni müəssisələr açılarsa və qurudulmuş xurma məhsulu dünya bazarına çıxarılarsa, daha çox gəlir əldə edə bilərik. Belə ki, satış həyata keçirilərkən hazır məhsul xammaldan baha satılır.

Xurma istehsalını və ixracını artırmaq, xarici bazarda müştəri tapmaq üçün Xurma İstehsalçıları və İxracçıları Assosiasiyası yaradılıb. Məqsəd fermerlərə istehsal və ixracda dəstək olmaqdır. Assosiasiyanın əsas məqsədlərindən biri də ölkədə istehsal olunan xurma məhsullarının "Made in Azerbaijan" brendi ilə satışını həyata keçirmək üçün fermerlərə kömək göstərməklə bu sahə ilə məşğul olan sahibkarların işini əlaqələndirməkdir. Assosiasiya yarandığı gündən fermerlərə hər cür dəstək verməklə məhsul istehsalının artımına və ixracına yardımçı olur. Bununla yanaşı, assosiasiya 21 rayonda xurma yetişdirməklə məşğul olan sahibkarların tələb və istəklərinin dövlət qurumlarına çatdırılması istiqamətində də mühüm rol oynayır.

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

AZƏRBAYCAN www.azerbaijan-news.az






# Gənclik






● Gələcəyə dəstək





# Hər bir gənc vətənpərvər olmalıdır

## İlham ƏLİYEV: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

**Hər bir ölkənin maddi və mənəvi tərəqqisi cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin sosial-psixoloji vəziyyətindən, həyat və əmək fəaliyyətindən bilavasitə asılıdır. İctimai-iqtisadi münasibətlərin təkmilləşdirilməsində gənclər hərəkatının böyük rolu var. Çünki onlar millətin gələcəyi, inkişafın və yüksəlişin əsas meyarıdır. Cəmiyyətin tərəqqisi dövlətin gənclər siyasətini düzgün müəyyənləşdirməsi və həyata keçirməsi ilə də sıx bağlıdır.**



Azərbaycanda gənclər hərəkatının təşəkkül tapması və inkişafına təsir edən amillərin öyrənilməsi, müasir dövrdə ölkədə həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərinin, prinsiplərinin, metodlarının, vasitə və formalarının tədqiqi onların ictimai-siyasi dəyişikliklərdə rolu və yerini dərindən dərk etməyə imkan verir.

Dövlətin gənclər siyasətinin çox geniş bir spektri - təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili, şəxsi problemlərinin həlli, hüquqlarının müdafiəsi, ölkənin ictimai-siyasi, mədəni həyatında iştirakı, təşkilatlarının fəaliyyəti, beynəlxalq əlaqələri və s. ilə bağlı məsələləri əhatə edir.

Azərbaycan gəncliyi tarixin bütün dövrlərində cəmiyyətin həyatında mühüm rol oynamış, xalqımızın əldə etdiyi uğurlarda onların böyük əməyi olmuşdur. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsində də gənclərin rolunu danmaq mümkün deyil. Sovet imperiyasına qarşı azadlıq mübarizəsinin, Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında məhz gənclərimiz getmişlər. Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə hökm sürən hərcmərclik, qeyri-sabitlik şəraitində dövlət səviyyəsində gənclərlə bağlı, demək olar ki, heç bir iş aparılmırdı. O dövrdə başlı-başına buraxılmış gənclərin bəziləri xalqımızın mənəvi dəyərlərinə zidd vərdişlərə qurşanmış, bir qismi isə ölkədə nizami ordu olmaması səbəbindən fərarilik edərək vətəni tərk etmişdilər. Hakimiyyət hərcmərcliyinin, siyasi qeyri-sabitliyin və s. mənfi amillərin məntiqi nəticəsi olaraq torpaqlarımızın bir hissəsinin işğalı gənclərimiz arasında pessimist əhvali-ruhiyyənin artmasına, milli dövlət məsələlərinə laqeyd münasibətin formalaşmasına, vətənpərvərlik hisslərinin azalmasına gətirib çıxarmışdı.

Yalnız 1993-cü ilin iyununda Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan anarxiya və özbaşınalıq mənggənəsindən çıxa bildi. Həmin həyəcanlı günlərdə Heydər Əliyev xalqın çağırışına səs verərək xilaskarlıq missiyasını öz üzərinə götürdü: ölkəni vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas etdi. Böyüməkdə olan nəslin və gənclərin mənəvi-etnik tərbiyəsinin möhkəmləndirilməsi məsələsi dövlət siyasətinin mühüm istiqamətinə çevrildi.

Azərbaycan tarixində gənclərlə bağlı vahid dövlət siyasəti məhz 1993-cü ildən həyata keçirilməyə başlanmış və bu iş bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olmuşdur.

Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə əlaqədar bir çox fərman və sərəncamlar imzalayan Heydər Əliyev gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm vermişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Bütövlükdə, 1993-2003-cü illərdə Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində mühüm təcrübə qazanılmışdır. Bu gün gənclər problematikası ilə məşğul olan ictimai elmlər, o cümlədən tarix elmi qarşısında müstəqillik illərində ölkədə həyata keçirilən dövlət gənclər siyasətinin təcrübəsini, xüsusiyyətlərini, nəticələrini tədqiq etmək, bu əsasda gənclərlə bağlı strategiyanın təkmilləşdirilməsi üçün təklif və tövsiyələr hazırlamaq kimi mühüm vəzifələr durur.

Ölkəmizdə məqsədyönlü şəkildə həyata keçirilən layihələrin nəticəsi olaraq bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə 2005-ci il avqustun 30-da imzaladığı "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncamı da gənclərə dövlət qayğısının davamı idi.

Bütün bunlar deməyə əsas verir ki, uğurla həyata keçirilən dövlət gənclər siyasəti gələcək nəslin intellektual səviyyəsinin artmasına da olduqca müsbət təsir göstərir. Təhsil sahəsində aparılan islahatlar gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamı olaraq "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində tələbələrin dünyanın məşhur universitetlərində təhsil almaq üçün göndərilməsi xüsusilə diqqətəlayiq idi. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" Prezident fərmanları bu istiqamətdə görülən mühüm tədbirlərdəndir.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" Dövlət Proqramı da bu qəbildəndir.

Azərbaycan əhalisinin 2,8 milyonu və ya 31 faizi gənclərdir. Sosial həyatın bütün sferalarına nəzər salsaq görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Cənab Prezidentin ölkənin idarə edilməsində son günlər gəncləri səlahiyyətli vəzifələrə irəli çəkməsi qarşıda duran hədəflərə çatmaqda onların potensialından maksimum istifadə etmək deməkdir. Bu, əlbəttə, həm də gənclərə inanaraq, güvənərək, vətənpərvər yetişmələri üçün hesablanmış siyasətdir.

Gənclər də dövlət qayğısını daim öz üzərlərində hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı doğrultmağa çalışırlar. Çünki Prezident İlham Əliyev gənclərə olan münasibətini belə ifadə etmişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdırlar.

*İlqar QULİYEV,*
*YAP Yasamal rayon Təşkilatı Gənclər Birliyinin sədri*

● Tribuna

# Asudə vaxtın səmərəli təşkili sağlam gəncliyin formalaşmasına xidmət edir

**Ölkəmizdə dövlətçiliyin möhkəm təməli və gələcəyin etibarlı təminatçısı olan intellektual gənclərin yetişdirilməsinə dövlət səviyyəsində xüsusi diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın icrası çərçivəsində Bakıda "Gənclər Mərkəzi"nin, regionlarda "Gənclər Evi"nin inşa edilməsi, Gənclər Fondunun yaradılması, gənclərin məşğulluğunun təmin edilməsi ilə bağlı xeyli iş görülmüşdür.**



Son illər ölkəmizdə gənclərin asudə vaxtının səmərəli təşkili ilə bağlı layihələrə xüsusi önəm verilir. Sözügedən dəstəyin mühüm istiqamətlərindən biri də gənclərə dövlət qayğısının gücləndirilməsindən, onlara hərtərəfli diqqətin göstərilməsindən ibarətdir. Respublikamızda bu istiqamətdə həyata keçirilən layihələr gənclərin hərtərəfli inkişafına xidmət edərək onların sosial təminatlarının yaxşılaşdırılmasını sürətləndirir, nəticədə ictimai həyatda fəallıqlarının artmasına kömək edir. Azərbaycan Prezidenti İlham Əliyev gənclərin işıqlı gələcəyinə diqqət çəkərək demişdir: "Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər".

Ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Azərbaycan gəncliyi ictimai həyatın bütün sektorlarında aktiv fəaliyyəti ilə seçilir. Göstərilən bu cür dəstəklə yanaşı, gənclərin asudə vaxtının səmərəli təşkil olunması dövləti ciddi düşündürən məsələdir. Gənclərlə bağlı yürüdülən dövlət proqramları çərçivəsində bölgələrdə inşa edilən olimpiya idman kompleksləri məhz onların asudə vaxtlarında idmanla məşğul olması üçündür. Bu gün İdman Akademiyasında təhsil alan tələbələrin əksəriyyəti bölgələrimizdə olimpiya idman komplekslərində idmanın bu və ya digər növü ilə məşğul olurlar.

"Sağlam bədəndə sağlam ruh olar". Sağlamlığı qorumaq üçün isə insan bu prosesə gənc yaşlarından start verməlidir. Yəni hansısa gəncin fərdi idmanla məşğul olması bəyənilləndir, ancaq bunun daha çox fərd kimi onun özünə xeyri ola bilər. Gənclərin fiziki inkişafına nail olmaq bütün dövlətlərin yürütdüyü siyasətdə prioritet faktor olaraq qalır. Fiziki inkişaf, sağlamlaşma ilə yanaşı, həm də gənclərin mənən formalaşmasına xidmət edir. Gəncliyimizin həm sağlam böyüməsi, həm də mənəvi inkişafı cəmiyyətin bütün təbəqələrini ciddi düşündürür. Prezidentin sərəncamları, eləcə də Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə gənclərin fiziki inkişafının gücləndirilməsinə nail olmaqla yanaşı, onların sağlam, savadlı və vətənpərvər olması üçün mühüm tədbirlər həyata keçirilir.

Azərbaycan dövləti gənclərin asudə vaxtının səmərəli təşkilinə, onlara yaradılan idman şəraiti ilə yanaşı, digər tədbirlərin də həyata keçirilməsinə xüsusi dəstək verir. Ölkəmizdə gənclərin asudə vaxtının səmərəli təşkilinə yönəldilən komitə və qurumlar fəaliyyət göstərir. Bunlardan biri də Azərbaycan Respublikası Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Komitəsinin bir qolu olan Tələbə Həmkarlar Təşkilatıdır. Biz də öz növbəmizdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Tələbə Həmkarlar Təşkilatı kimi gənclərimizin asudə vaxtlarının səmərəli təşkili üçün bütün qüvvəmizdən istifadə edirik. Akademiya daxilində, ölkəmizin bölgələrində və xarici ölkələrdə keçirilən tədbirlərdə yaxından iştirak edirik, tələbələrlə sıx əlaqə yaradırıq. Həmçinin müxtəlif mədəniyyət ocaqlarında keçirilən tədbirlərdə, teatrlarda gənclərin iştiraklarını təmin edirik, əyləncəli tamaşaları izləməkdə onlara yardımçı oluruq. Xüsusilə ölkəmizdə keçirilən beynəlxalq və respublika idman yarışlarında gənclərimizin könüllü kimi fəaliyyətini və idman azarkeşi kimi iştirakını təşkil edirik.

*Gülşən İSMAYILOVA,*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Tələbə Həmkarlar Təşkilatının sədri*

● İstedad

# Tələbə-pianoçunun uğuru

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının ikinci kurs tələbəsi, Prezident təqaüdçüsü, Almaniyada, İngiltərədə, Estoniyada, Belçikada və Danimarkada keçirilən ifaçılıq yarışlarının laureatı Leyla Zeynalova Riqada gənc pianoçuların VIII beynəlxalq müsabiqəsində uğurla çıxış edərək birinci yerə layiq görülüb.**



Redaksiyamıza daxil olan məlumatda bildirilir ki, professor Kəmalə Neymanovanın sinfində təhsil alan tələbə-pianoçu İohann Baxın musiqilərinin, latviyalı bəstəkar M.Drustenin "Folk İmpression" əsərinin ən yaxşı ifaçısı kimi Almaniyanın Aynbek şəhərində keçiriləcək Qış Akademiyasına dəvət alıb, habelə münsiflər heyəti tərəfindən xüsusi mükafatla təltif edilib.

*"Azərbaycan"*

● Musiqi dünyası

# Gəncliyin səhnədə sənət coşqusu...

**Azərbaycan professional musiqi sənətinə yeni töhfə hesab olunan "Məhsəti" operası iki ölməz sənətkarın - Məhsəti Gəncəvi və Üzeyir bəy Hacıbəyli yaradıcılığının məhsuludur. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında yenidən tamaşaya qoyulan "Məhsəti" operası hər iki sənət korifeyinə gənc nəslin sevgisinin ifadəsidir.**





Dahi Üzeyir bəy Hacıbəylinin bu əsərinə can verən, onu sevdirən, səhnədən enməsinə imkan verməyən korifeylərimizin gənc davamçılarından sayılan bəstəkar Pikə Axundova, libretto müəllifi Leyla Qədirzadə, baş rolların ifaçıları - Əməkdar artistlər İnarə Babayeva, Ramil Qasımov, həmçinin yaradıcı heyətin digər üzvləri "Məhsəti"ni tamaşaçılara yenidən sənət coşqusu ilə təqdim etdilər. Maraqlı məqamlardan biri operanın mövzusunun ömrünü sənət yolunda şam kimi əridən Məhsəti Gəncəvinin taleyindən bəhs etməsidir.

Bu dəfə gənc bəstəkar Pikə Axundova böyük məsuliyyətlə, öz yaradıcılıq imkanlarına güvənərək, tamaşaya imza atmış oldu.

Azərbaycan poeziyasında Məhsəti imzası XII əsrdən tanınır və sevilirsə, onun milli musiqi aləmində özünəlayiq yer tutması isə bəstəkarlarımızın ölməz şairin şeiriyyət dünyasını bir daha tamaşaçılara sevdirmək məramı ilə üst-üstə düşür. Bəstəkar bir daha musiqi ilə poeziyanın vəhdətini yaratmaqla onun heç vaxt zamanların arxivinə atılmayacağını təsdiqləmiş oldu.

Mütəxəssislərin fikrincə, Azərbaycan poeziyasının musiqidə təcəssüm etdirilməsi hər iki sənətə uzunömürlülük vəsiqəsinin verilməsi anlamına gəlir. Bəstəkar Ramiz Mustafayevin "Vaqif"i ilə V.Adıgözəlovun "Natəvan"ından sonra "Məhsəti"nin də adının həmin silsiləyə daxil olması Azərbaycan poeziyasının musiqidə təcəssümü deməkdir.

"Bu dünya bir qızıl kuzəyə bənzər, suyu gah şirindir, gah da ki, zəhər", - deyib Məhsəti xanım. Bəli, dünyanın "qızıl kuzələr"indən doldurduğu acını da şirin pay kimi qəbul edərək cəsarətli bir qadın ömrü yaşayan, gözəlliyi və amalı, əqidəsi, rübaisi və məsnəvisi ilə diqqət çəkən Məhsəti Gəncəvinin obrazının gənclik tərəfindən yenidən operaya gətirilməsi zamanın diktəsi kimi də qəbul olunur.

Bəstəkar Pikə Axundova, libretto müəllifi Leyla Qədirzadə, quruluşçu rejissor və Məhsəti obrazını yaradan İnarə Babayeva, quruluşçu baletmeyster, Xalq artisti Təranə Muradova, xormeyster Şəhla Ələkbərova, geyim üzrə rəssam, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova, Xanəndə qız rolunun ifaçısı, Əməkdar artist Fərqanə Qasımova və digər iştirakçılar sanki Məhsəti ilə müasir dövr xanımları arasında bir mənəvi körpü yaratmağı qarşılarına məqsəd qoyublar. Sevindirici haldır ki, öz təkrarsız ifaları, yaddaqalan obrazları ilə onlar buna nail olublar.

Operada Məhsəti obrazını yaradan İnarə Babayeva və şairənin ömür-gün yoldaşı Əmir Əhməd rolunun ifaçısı Ramil Qasımov növbəti dəfə peşəkar opera müğənnisi olmaları ilə tamaşaya böyük impulslar gətiriblər. Operada iştirak edən - digər personajları canlandıranlar (Taleh Yəhyayev - Sultan Səncər, Fəhmin Əhmədli - Vəzir, İlqar Məclumov - Nizami Gəncəvi, Fəxri Kazım Nicat - Qasid) da öz rollarının öhdəsindən məharətlə gəliblər.

Operanın da musiqi və səhnə tərtibatı tamaşanın daha inandırıcı və təsiredici olmasında əsas vasitələrdən birinə çevrilib. Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyovun idarəsi ilə Azərbaycan Televiziya və Radiosunun Niyazi adına simfonik orkestri operanın musiqi tələbatını tam təmin edir. Xanəndə qız obrazından ayrıca söz açmaq daha doğru olardı. Bu obrazın Əməkdar artist Fərqanə Qasımovaya həvalə edilməsi tamaşanın uğurlu alınmasında mühüm amil hesab olunur.

Operanın musiqi xarakteristikasından söz açmışkən qeyd edilməlidir ki, burada muğamdan istifadə ənənəyə sadiqliyin təsdiqidir. Üzeyir bəy Hacıbəylinin muğam ənənəsinin qorunub saxlanması həm də Məhsəti şeirinin musiqinin bu janrı ilə vəhdəti deməkdir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

Dünya olduğu kimi

# İnsanlığa ilk qadağa, bəşəriyyətin bərəkəti

**Çörək dünyada ən geniş yayılmış qida sayılır. Bu gün insanlığı çörəksiz, buğdasız təsəvvür etmək mümkün deyil. Bəs maraqlıdır, görəsən insanların buğda ilə tanışlığı nə vaxt başlayıb? Buğdadan çörəyin hazırlanması necə kəşf olunub?**



Bəşəriyyətin buğda ilə tanışlığı Yer üzündə yaşamın başlanğıcı kimi qəbul edilir. Bəzi dini rəvayətlərə görə, Allah ilk insanı - Adəmi, eləcə də o, tək olmasın deyə Həvvanı yaradır və hər ikisinin ilk zamanlar cənnətdə yaşamalarına, oradakı bütün nemətlərdən faydalanmalarına izn verir, yalnız buğdadan başqa. Şeytanın təhrikiylə Adəm və Həvva qadağaya baxmayaraq, buğdanı yedikləri üçün Allahın qəzəbinə gəlir və Yerə göndərilirlər. Əvvəllər cənnətdə rahatlıqla əldə etdikləri nemətləri Yerdə özləri zəhmətlə əldə etməli olurlar. Buğdanın ilk istehsalı da məhz o zamana təsadüf edir...

Bu gün dünyada elə bir ölkə yoxdur ki, orada aparılan arxeoloji qazıntılar zamanı çöreklə bağlı hansısa əlamətlərə rast gəlinməsin. Tarixi mənbələrdə İraqın şimalında tapılan ilk mədəni buğdanın e.ə. 10-cu minilliyin ikinci yarısına aid olması göstərilir. Həmçinin eramızdan əvvəl II-III minillikdə Misirdə 3 buğda növünün əkildiyi qeyd olunur. Azərbaycanda aparılan arxeoloji qazıntılar zamanı daşlaşmış buğda növləri e.ə. VI-VII minilliyə aid edilir.

Yuval Noah Harari "Sapiens: Bəşəriyyətin qısa tarixi" kitabında yazır ki, təxminən 18 min il əvvəl sonuncu buz dövrü öz yerini qlobal istiləşmə dövrünə verdi və temperatur artdıqca yağıntıların miqdarı da azaldı. Yeni iqlim Yaxın Şərqdə buğda və digər taxıllar üçün ideal idi. Odur ki, onlar çoxalaraq yayıldı: nəticədə insanlar daha çox buğda yeməyə başladılar və özləri də bilmədən bu bitkinin yayılmasına səbəb oldular. Yabanı toxumları ələmədən, arıtlamadan və bişirmədən yemək mümkün olmadığı üçün insanlar onları toplayıb, istifadəyə hazırlamaq məqsədilə müvəqqəti düşərgələrə daşıyırdılar. Buğda toxumları kiçik və çox sayda olduğundan, düşərgələrə daşındıqda yolda yerə tökülürdü. Bu səbəbdən tədricən insanların gediş-gəliş yollarının və düşərgələrin ətrafında daha çox buğda cücərməyə başladı.

İnsanların sıx cəngəllikləri və meşələri yandırması da buğdanın inkişafına kömək etdi. Od ağac və kolluqları təmizləyərək buğda və digər otların gün işığını, suyu və qida maddələrini təkbaşına istismar etməsi üçün şərait yaratdı. Buğdanın bol olduğu yerlərdə ov heyvanları və digər qida mənbələri də çox olduğundan insanlar köçəri həyat tərzindən tədricən əl çəkib, mövsümi və daimi düşərgələrə yerləşdilər.

Ehtimal var ki, ilk vaxtlar yalnız məhsul yığımı zamanı bir neçə həftəliyə düşərgə salırdılar. Nəsillər dəyişdikcə buğda da çoxalıb yayılırdı və məhsul yığımı 5-6 həftə davam edirdi. Nəticədə müvəqqəti düşərgələr daimi yaşayış yerlərinə - kəndlərə çevrilirdi. Bu cür məskənlərin varlığına dair sübutlar bütün Yaxın Şərqdə, xüsusilə də Natuf mədəniyyətinin e.ə. 12500-9500-cü illər arasında inkişaf etdiyi Levant bölgəsində aşkar edilib. Natuflar daşdan evlər və anbarlar tikər, qıtlıq dövrləri üçün toxum saxlayardılar. Yabanı buğdanı toplamaq üçün daş oraq, döymək üçün daş həvəng kimi alətlər icad etmişdilər.

E.ə. 9500-cü ildən sonrakı dövrdə Natufların övladları taxıl yığımına və tədarükünə davam etdilər. Amma taxılı daha da inkişaf etmiş üsullarla yetişdirməyə başladılar. Yabanı toxumları yığarkən məhsulun bir qismini növbəti mövsümdə əkmək üçün ayırıb saxladılar. Toxumları necə gəldi səpmək yerinə onu torpağa basdıranda daha yaxşı nəticə əldə etdiklərini gördülər, buna görə də toxa və kotanı icad etdilər. Sonra tədricən tarlaları otlardan təmizləmək, parazitlərdən qorumaq, sulamaq və münbitləşdirmək kimi üsulları tətbiq etməyə başladılar. Taxılı yetişdirməyə daha çox diqqət yetirdikcə, digər yabanı növləri toplamağa və heyvanları ovlamağa daha az vaxt və enerji sərf etməyə başladılar. Beləcə, ovçu-toplayıcılar fermerlərə çevrildilər.

Zamanla icmalar arasında ünsiyyət quruldu. İstehsal etdiyi məhsulun artığını özündə olmayan məhsulla mübadilə etməklə ticarət əlaqələri yarandı. İnsanlar istehsal etdiyi və satdığı məhsulu hesablaya bilsin deyə daş, gil lövhələrə və dəri parçalarına xətt çəkməyə başladılar. Bu xətlər zamanla inkişaf etdi və səsləri ifadə etməyə başladı. İnsanlar yazının kəşfi ilə tarixin qaranlığından çıxdı. Buna görə buğda təkcə Yer üzünün yaranmasına səbəb olan qadağa ilə bağlı deyil, həm də sivilizasiyaya keçidin əsas dinamikasıdır.

Arxeoloji mənbələr buğda əkininin Anadoluda, Azərbaycanda, Qərbi İran və Cənubi Qafqazda başladığını təsdiqləyir. Xüsusilə Anadoluda, Misirdə və İraqda aparılan arxeoloji qazıntılar zamanı daşlaşmış buğda dənələri tapılıb. İordaniya çayı yaxınlığındakı Jeriko və Dəməşqin cənubundakı Tel Esved bölgəsində buğda əkilməsi ilə bağlı konkret arxeoloji məlumatlar var. Bu bölgənin həqiqətən Adəmin cənnətdən qovulduğu coğrafiya olub-olmadığı bilinmir, ancaq bəşəriyyətin sivilizasiya prosesi buradan başlayıb. Bəli, həm tarixi, həm də dini qeydlər buğda əkinçiliyinin ilk dəfə bu coğrafiyada başladığını və qədim sivilizasiyaların əsas qida məhsulunun buğda olduğunu təsdiqləyib.

Mesopotamiya sivilizasiyalarından qalan yazılı qaynaqlarda buğdanın əsas ticarət məhsullarından biri olduğu təsdiqlənib. "Gilgameş" dastanında buğda motivi teztez işlənib və təsvirlərdə istifadə edilib. Buğda Mesopotamiyadan Ərəbistan səhralarına və Asiyaya dəniz yolu ilə körfəzə göndərilən əsas məhsul olub. Qədim Misirdə və Finikiyada buğdadan vergi tutulub.

İnsanlar buğdanı əvvəllər suda isladıb yeyiblər. Sonra odda qovurub yeyəndə daha dadlı olduğunu görüblər. İki düz daş arasında əzdikdə isə toz halına gəldiyini aşkar ediblər. Undan bişirilən ilk qidanın horra olduğu və bunun Qədim Misirdə baş verdiyi düşünülür. Belə ki, misirlilər buğda tozunu dəri qabların içində su ilə qarışdırıb, isti daşların üzərində bişirərək horra əldə ediblər. İllər sonra xəmir əvvəlcə qaynar daşın, daha sonra dəmirdən hazırlanmış sacın üzərində bişirilib və çörək əldə olunub. Təndirdə çörək bişirmə üsulundan bu gün Azərbaycanla yanaşı, Orta Şərqdə və Kiçik Asiyada da istifadə olunur.

Unu mayalandırmaq prosesinin isə 4 min il əvvəl misirlilər tərəfindən kəşf olunduğu qəbul edilib. Bu üsulla daha az buğda ilə daha çox və dadlı çörək əldə etmək imkanı yaranıb.

Hazırda isə buğda təkcə çörək istehsalında deyil, müxtəlif məhsulların hazırlanmasında da geniş istifadə olunur.

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*

## Bilirsinizmi...



- Neftin cəmi 1 damlası 25 litr içməli suyu yararsız hala salır;
- Kosmosa uçan ilk qadın Valentina Tereşkova olub. Tereşkova 16 iyun 1963-cü ildə "Vostok-6" kosmik gəmisi ilə Yer kürəsini tərk edib;
- Balinanın ürəyi dəqiqədə 9 dəfə vurur;
- Las-Veqasın kazinolarında bir dənə də olsun saat yoxdur;
- Xeops ehramının plitələri arasından ülgüc də keçirtmək mümkün deyil;
- Küveyt ərəbcə "qorunmuş kənd" (qala) mənasını verir;
- Dünyada ilk "Gözəllik yarışması" üç ilahənin - Hera, Afrodita və Afinanın mifik rəqabəti hesab olunur. Onlar münsif qismində insan oğlu Parisi seçiblər. Paris əsas mükafat olan almanı Afroditaya verib;
- Qalaktikamızda hər il qırxa yaxın yeni ulduz meydana çıxır;
- Öz qurbanlarına hücüm edən akulalar gözlərini zədələməmək üçün yumurlar;
- Dünyada ən çox ispanca danışılan ölkə İspaniya deyil, Meksikadır;
- Meduzanın vücudu 98 faiz nisbətində sudan ibarətdir. Buna görə də meduza günəşdə quruduqda demək olar ki, yox olur;
- "Habll" kosmik teleskopu tərəfindən şəkli çəkilən ən qocaman qalaktikanın yaşı 12 milyard ildir.

# Elm adamları Yerdəki canlıları Aya göndərib

**Aprel ayında Ayda qəzaya uğrayan "Beresheet" kosmik aparatının göyərtəsində "su ayısı" kimi də adlandırılan minlərlə tardigradlar olub. Tardigradları kosmosa göndərən ABŞ-ın "The Arch Mission Foundation" təşkilatı onların sağ qalacaqlarına ümid edib. 8 ayaqlı, beyni və mərkəzi sinir sistemi olan bu xırda məxluqlar hədsiz dözümlüdürlər, olduqca aşağı temperaturda və çətin şərtlərdə sağ qala bilirlər.**



"Nuhun gəmisi" və ya Yeri "sığortalamaq" cəhdi göstərmək üçün qeyri-kommersiya təşkilatı "The Arch Mission" kosmosa ay kitabxanası da göndərib - bu kitabxanada Yer planeti haqqında 30 milyon səhifədən ibarət məlumat daşıyan DVD toplusu var. Kitabxana ilə yanaşı, Aya tardigradların nümunələri də göndərilib.

"Biz onları ona görə seçmişik ki, xüsusidirlər. Onlar bizim bildiyimiz ən kiçik həyat formalarıdır. Onlar istənilən planetar kataklizmdə, kosmos vakuumunda, radiasiyada sağ qala bilərlər" deyə missiyanın nümayəndəsi Nova Spivak bunu mətbuata açıqlamasında söyləyib. Tədqiqatçılar ümid edirlər ki, tardigradlarla yanaşı, ay kitabxanasındakı informasiyanın da çoxu qəzadan sonra sağ qala bilib və milyon illər sonra insan həyatı yarada biləcəklər.

"Bizim göndərdiyimiz DNK və hüceyrələrin köməyilə insan irqini, digər bitkiləri və heyvanları yenidən generasiya etmək mümkündür" deyə Spivak əlavə edib.

# Makedoniyalı İsgəndərin ölüm səbəbi müəyyənləşdi



**Aristotel Universitetinin alimləri doktor Tomas Qerasimidisin rəhbərliyi altında çoxillik araşdırma nəticəsində Makedoniyalı İsgəndərin ölüm səbəbini müəyyən edib. Onların fikrincə, məşhur sərkərdəni şərab və yağlı yeməyə olan sevgisi öldürüb.**

Yeni araşdırma zamanı məlum olub ki, xəstəliyin ilkin yaranma vaxtı ilə sərkərdənin ölümünü cəmi 14 gün ayırır. Birinci gün Makedoniyalının qarın nahiyəsində güclü ağrılar başlayıb və hərarəti qalxıb. Şəfaçılar onu qusdurub və soyuq vannaya salıb. İkinci gün o, gücsüzlük və titrəmədən şikayətlənməyə başlayıb. Bundan əlavə, onu qarın nahiyəsindəki ağrılar incitməyə davam edib. Buna baxmayaraq, o, məclisə yollanıb bir neçə ağır yemək yeyib və çoxlu şərab içib. Səhərisi gün özünü daha pis hiss edib, hərarətə hədsiz çox tərləmə və nəfəsalma problemi əlavə olunub. Sonrakı günlərdə İsgəndərin vəziyyəti sürətlə pisləşməyə başlayıb. Onda hallüsinasiyalar yaranıb, sərkərdə fikrini izah etməkdə çətinlik çəkib. Bütün bu simptomları bişləşdirib analiz edən alimlər belə qənaətə gəliblər ki, Makedoniyalı İsgəndər kəskin pankreonekrozdan (mədəaltı vəzi xəstəliyi) dünyasını dəyişib.

Xatırladaq ki, Makedoniyalı İsgəndər e.ə. 323-cü ildə 32 yaşında vəfat edib. Onu o dövrün həkimlərinin təyin edə bilmədiyi xəstəlik heyrətləndirib. Sərkərdənin malyariya, tif, pnevmoniya və hətta xərçəngdən dünyasını dəyişdiyi deyilirdi. Araşdırmanın müəllifləri izah ediblər ki, malyariya qısa vaxt ərzində ölümə səbəb ola bilməz, tifin digər simptomları var, pnevmoniya üçün isə qarın ağrıları xarakterik deyil.



Sağlıq olsun

# Yaddaş sınağı

Həkim məsləhəti



**Son zamanlar əksər insanlar yaddaşının zəifləməsindən, hafizəsinin itdiyindən gileylənirlər. Əvvəllər yaddaş problemi yaşlı nəslin nümayəndələri üçün xarakterik idisə, indi bu hal gənclər arasında da geniş vüsət alıb. Bu bir faktdır ki, cəmiyyətdə yaddaşından şikayət edənlərin sayı durmadan artır.**

Həkim-psixiatr Nərminə Məmmədova bildirir ki, yaşlılarda yaddaşın pozulması çox zaman bir sıra xəstəliklərin (beyin damarlarının aterosklerozu, qocalıqla bağlı zəifliyi, Alsheymer xəstəliyi və s.) nəticəsi olur. Cavan şəxslərdə isə yaddaş pozğunluğu yorğunluğun, qeyri-düzgün həyat tərzinin, həddən artıq informasiya yüklənməsinin nəticəsidir. Gərgin iş qrafiki, informasiya çoxluğu, düzgün balanslaşdırılmamış qidalanma beynin fəaliyyətinə öz təsirini göstərir və yaddaşsızlığa da səbəb olur. Öncəliklə rejimə riayət etmək, vaxtlı-vaxtında yatıb durmaq, zehni işlə fiziki işi növbələşdirmək, istirahət etmək lazımdır. Qidalanarkən tərkibində aminturşular (zülallar), fosfor, kalsium, A, E, B qrup vitaminlər olan qidalara çox yer verilməlidir. İdman etmək, xüsusilə də onurğa sütununun idmanları beyin qan dövranını gücləndirir və yaddaşı yaxşılaşdırır.

### Hər şeyi yadda saxlamaq mümkün deyil

Yaddaşın iki növü var: qısamüddətli və uzunmüddətli.

Yaddaşa bir sıra amillər təsir edir. Kimsə gördüyünü, kimsə eşitdiyini daha yaxşı yadında saxlayır. Ən çox hər hansı marağa səbəb olan hadisə yadda qalır. Çox vaxt yaddaşsızlığı huşsuzluqla səhv salırlar. Lakin fikri dağınıq olan insanlar əslində öz xəyallarına qapılırlar, onların diqqəti nədəsə cəmlənir və bu adamlar üçün məişət xarakteri daşıyan hər hansı məlumat heç bir əhəmiyyət kəsb etmir. Çox vaxt insanda olan xəstəlik, həddindən artıq yorğunluq nəticəsində əmələ gələn diqqətsizlik yaddaş pozuntuları ilə dəyişik salınır. Yaddaşın pozulmasına dair şikayətlər insanların 40 yaşından sonra çoxalır. Əslində, bu, hər zaman olmur. Sadəcə olaraq, fəal tədris bitdikdən sonra nəyi isə öyrənməyin, fikri cəmləşdirməyin, yaddaşı möhkəmləndirməyin mənası itir. Bütün ömürləri boyu yeni rollar öyrənmək məcburiyyətində olan aktyorlar hətta qocalanda belə həcmli mətnlərin öhdəsindən məharətlə gəlirlər.

Hər şeyi yadda saxlamaq mümkün deyil. İnsan beyni lazımsız təəssüratlar və məlumatlar yükündən azad olmalıdır. Yaddaş özü yükü tənzimləyir, yeni məlumatın qəbuluna hazırlaşır. Lakin belə olan halda köhnə məlumat tamamilə itmır. O, fəal yaddaşdan passiv yaddaşa keçir. Oradan isə lazım olanda onu çıxarmaq olur. Yadda saxlama qaydaları kifayət qədər sadədir.

İlk növbədə, bunun üçün görmə, eşitmə, iybilmə qabiliyyətindən istifadə edərək fikri bir yerə cəmləşdirmək və təəssürat yaratmaq lazımdır. Bunlardan görmə təəssüratı ən davamlısıdır. Bu, gözdən beyinə gedən sinirlərin qulaqdan beyinə gedən sinirlərdən iyirmi dəfə qalın olması ilə əlaqədardır.

Yaddaşın ikinci qaydası - təkrar, üçüncü isə assosiasiyalardır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bilirik?

- Məşhur rus yazıçısı Lev Tolstoy "Hərb və sülh" əsərinin radioda oxunuşuna böyük maraqla qulaq asır, lakin əsərin müəllifinin özü olduğunu xatırlaya bilmir...
- Mühəndis, ixtiraçı, fizik Nikola Tesla "fotoqrafik yaddaş"a sahib idi və çox nadir hallarda nəyisə qeyd edirdi. Deyilənlərə görə, Tesla 1885-ci ildə laboratoriyası yandıqda öz ixtiralarının bir çoxunu bərpa edə bilmişdi.
- Dahi rus bəstəkarı, dirijor və pianoçu Sergey Rahmaninov vizual yaddaş vasitəsilə inanılmaz sürətlə notları yadda saxlayırdı.
- Fikirləri çox dağınıq olan kimyaçı və bəstəkar Aleksandr Borodin bir gün dostlarını evinə qonaq çağırır. Məclisin ən qızğın vaxtı birdən o ayağa qalxaraq sağollaşıb çıxmağa hazırlaşanda qonaqlar soruşurlar:

- Hara belə, Aleksandr Porfiryeviç?
- Sağlıqla qalın, vaxtım yoxdur, evdə olmalıyam, səhər mühazirəm var.

Dostlarının güldüyünü gördükdə Borodin başa düşür ki, o, öz evindəymiş...

- Fransanın ilk imperatoru və hərbi sərkərdə Napoleon Bonapart qeyri-adi yaddaşa malik idi. O, xəritələri və qoşunların yerləşdiyi yerləri dəqiq yadda saxlaya bilirdi və bunun sayəsində operativ şəkildə hərbi strategiyalar hazırlayır, düşmənin fəaliyyətini bir neçə addım öncədən təxmin edə bilirdi.

Sağlam yaşam

# Bunları edərək beyninizi yavaş-yavaş öldürürsüz

**"Əgər siz normal səhər yeməyi yemirsinizsə, ayaqüstü nə isə atışdırırsınızsa, eyni anda da telefonla danışırsınızsa, içki içib, siqaret çəkirsinizsə və bütün günü stres keçirirsinizsə, bilin ki, yavaş-yavaş beyninizi öldürürsünüz".**

Bu sözləri məşhur neyrocərrah, professor Vlad Siuyera açıqlamasında bildirib: "Hər gün səhərlər oyanan kimi mütləq elementar səhər idmanı edin. Sonra 2 stəkan su için. Birinci stəkan sizin mədə-bağırsaq sisteminizi hərəkətə gətirəcək, ikinci stəkan isə yuxudan tam ayıldacaq. Bundan başqa, beynin qidalanması üçün birinci təmiz hava, yağlı olmayan qida və şirni lazımdır. Şirnidən tam imtina etməyin, balı mütləq qida rasionuna daxil edin. Bundan əlavə, qara şokaladdan da istifadə edin".



Professor telefondan çox istifadə edənlərə də məsləhətlər verir: "İnsanlar müasir dövrdə virtual aləmdə bir-birləri ilə ünsiyyətdə olurlar, bu da beyinə pis təsir göstərir. Biz yaradılışdan canlı ünsiyyətə girməyə öyrəşmişik. Beyninizi virtuallıqda öldürməyin. Yadda saxlayın, insan beyni gecə də yatmır. O, orqanlarımızın fasiləsiz normal fəaliyyətini tənzimləyir. Fikir verin, əgər siz gecə bir problemi həll etməkdə çətinlik çəkib o haqda fikirlə yuxuya getmisinizsə, səhər mütləq yeni bir ideya ilə ayılacaqsınız. Beyin fikir, yaddaş və hərəkət arasında əlaqə quraraq sizə problemlərin həllində ideya verir. Ona görə yuxusuz gecələrlə nə özünüzə, nə də beyninizə əzab verməyin".

Həkim xəbərdarlıq edir ki, tütün ürəyə olduğu kimi, beynə də ölümcül zəhərlənmə verir: "Beynin inkişafı üçün mütləq yağsız ət yeyin. Ən yaxşı seçiminiz balıq və quş əti olsun. Beyin duzu qəti sevmir. Ondan uzaq dursanız, bu, sizə sağlamlıq bəxş edər. Beynin gün ərzində 2 dəfə aktiv vaxtı olur. Bu, saat 10:00-12:00 və 16:00-18:00 zaman kəsimində olan müddətlərdir. Əgər bu vaxtlardan kənar beyninizin yorulduğunu hiss etsəniz, qəhvə ilə onu oyada bilərsiniz. Ancaq onu da mütləq aramla için. Yadda saxlayın ki, beynin ən gözəl məşqi gülüşdür, bunu simanızdan əskik etməyin. Təmiz havada tez-tez olun, səyahət edin, kitab oxuyun. Sizə nəsə öyrədəcək filmlərə baxın, krossvordlar həll edin. Ən əsası canlı ünsiyyət qurun. Axşam saat 22:00-dan gec olmadan yatın, yuxu 6 saatdan az olmamalıdır".

Xalq təbabəti

## Yaddaş məcunu



Qurudulmuş və toz halında olan Ginkqo biloba, zəncəfil, çiçək tozu, yapon saforası meyvəsi, jenşen kökü bitkilərinin hərəsindən 40 qram götürülür və 1 kiloqram balla yaxşıca qarışdırılır. Bu qarışımdan böyüklərin gündə 3 dəfə yeməkdən əvvəl 1 çay qaşığı, uşaqların yarım çay qaşığı yeməleri məsləhətdir. Hazırlanan təbii məcun yaddaşın güclənməsində olduqca faydalıdır.

Beyin məşqi

## "Sehrli say" qaydası



1. Beyin ağırlıq cəhətdən bədənin yalnız 2 faizini meydana gətirdiyi halda, bədənə gələn oksigenin 25 faizini istehlak edir. Oksigensiz qaldığı zaman ölümü həyata keçən ilk orqan beyindir. Buna görə də bol və təmiz oksigen beyin üçün çox önəmlidir.

2. Açıq havada və ayaqüstə olanda insan beyni 10 faiz artıq işləyir. Buna görə də zamanınızın çoxunu təbiətdə olmağa çalışın.

3. Beyin qısamüddətli hafizədə 5-7 arasında məlumat üzərində işləyə bilər. Yeni məlumat gələndə onlardan birini silir. Buna "sehrli say" qaydası deyilir. Bu qayda pozulub, məlumat yüklənməsi baş verəndə beyin "xidmət xarici" olur. Buna görə də həyatınızın ən böyük qərarlarını aldığınız zaman əvvəlcədən kağız üzərinə yazaraq nə edəcəyinizi hesablayın.

4. Gündəlik təkrarladığınız davranışlardan imtina edin. Bəzən telefonu sol əlinizdə tutun, çantanızı digər əlinizlə daşıyın, evinizə başqa bir yoldan gedin.

5. İntellektual zövqlərinizi inkişaf etdirmək üçün hər gün mütləq yaxşı bir aforizm oxuyun. Beyninizi keyfiyyətli cümlələrlə qidalandırın.

6. Beyni yoran monotonluqdur. Həyatınızı nə qədər rəngarəng etsəniz, beyniniz də o qədər yaxşı işləyər.

Şəfalı bitkilər

## Beyin ağacı



Beyin ağacı olaraq da tanınan Ginkgo biloba Çində kəşf edildikdən sonra bütün dünyaya yayılıb və müalicəvi bitki kimi əczaçılıqda geniş istifadə olunur. Bu şəfalı bitkinin yarpaqlarının ekstraktında flavonoid qlükozidlər var. Elmi araşdırmalar Alsheymer, yaddaş itkisi, unutqanlıq kimi problemlərdə bu bitkinin faydasını təsdiq edib. Belə ki, yaddaşın gücləndirilməsində, başgicəllənmənin qarşısını almaqda və zehni konsentrasiyanı artırmaqda Gingko ekstraktının inanılmaz köməyi olur.

Alimlərin siçanlar üzərində apardığı yeni araşdırmada cib telefonlarının beyinə yaymış olduğu dalğalara qarşı Ginkgo bilobanın faydası olduğu da ortaya çıxıb.

Ölkəmizi tanıyaq

# Tur-aksiyaların birinci mərhələsi uğurla başa çatıb





Prezident İlham Əliyevin tövsiyəsinə əsasən, "Ölkəmizi tanıyaq" devizi altında keçirilən maarifləndirici tur-aksiyaların bu ilin payızında startı verilən birinci mərhələsi uğurla başa çatıb.

AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində noyabrın 13-də Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya başlayan Lerik, Astara, Lənkəran, Yardımlı, Masallı, Cəlilabad, Biləsuvar, Xızı və Abşeron məktəblilərindən ibarət qruplar noyabrın 16-da ekskursiyalarını başa vuraraq Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Qəbələ şəhərindəki "Karvansaray" və "Qafqaz Sport" hotellərində qalan 360 məktəbli və onları müşayiət edən şəxslər ekskursiya müddətində Qəbələ, Şəki və Zaqatala rayonlarındakı görməli yerlərlə, muzeylərlə, tarixi məkanlarla yaxından tanış olublar.

Ölkə iqtisadiyyatında önəmli rola malik bölgələrimizdən biri olan Qəbələ-Şəki-Zaqatala zonası inkişaf etmiş turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, eyni zamanda, tarixi məkanları ilə tanınır.

Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzinə, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə, konserv zavoduna, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nic qəsəbəsindəki "Cotari" alban-udi kilsəsinə ekskursiyalar, Şəkidəki Heydər Əliyev Mərkəzi, "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu, Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı, qoruğun ərazisində yerləşən muzeylər və sənətkarlıq emalatxanaları ilə tanışlıq məktəblilərin böyük marağına səbəb olub. Tur-aksiya iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzi, Tarix-Mədəniyyət Qoruğu, "Qaladüzü pilləkənləri", Dədə Qorqud Meydanı, Tarix-Diyarşünaslıq Muzeyi ilə də tanış olub, fındıq emalı zavodunda istehsal prosesinə baxıb, şəhərin görməli yerlərini gəziblər.

Şagirdlər, həmçinin ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış olub, onlarda Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə əyani təsəvvür yaranıb.

Noyabrın 15-də axşam tur-aksiya iştirakçıları "Nə? Harada? Nə vaxt?" intellektual oyununda növbəti dəfə bilik və bacarıqlarını nümayiş etdiriblər. Yarışın yekun nəticələrinə əsasən, Lerik məktəbliləri intellektual oyunun qalibi adını qazanıblar. İkinci və üçüncü yerləri isə Biləsuvar məktəblilərindən təşkil olunmuş komandalar tutublar. Qaliblər kubok, medal və sertifikatlarla mükafatlandırılıblar.

Doqquz rayonun məktəbliləri respublikamızın şimal-qərb bölgəsindən zəngin təəssüratlarla ayrılıblar.

* * *

Ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri dörd gün ərzində cənub bölgəsinə səyahət zamanı şəhər və rayonların tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olublar.

Noyabrın 16-da tur-aksiyanın Şəki şəhərinin, Qax, Balakən, Zaqatala, Oğuz, Qəbələ, İsmayıllı, Kürdəmir və Şamaxı rayonlarının IX-XI sinif şagirdləri və onların müəllimləri Lənkəran-Masallı-Astara zonasına ekskursiyanı başa çatdıraraq yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Maarifləndirici aksiyanın iştirakçılarını Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyətin nümayəndələri yola salıblar.

Cənub bölgəsindən zəngin təəssüratlarla ayrılan məktəblilər ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

* * *

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində beş şəhər və doqquz rayonu təmsil edən şagirdlərin şimal bölgəsi ilə tanışlığının sonuncu ünvanı muzeylər və parklar şəhəri Xaçmaz olub.

Noyabrın 16-da Gəncə, Sumqayıt, Mingəçevir, Yevlax, Şirvan, Naftalan, Şuşa, Kəlbəcər, Xocalı, Laçın, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Xaçmaz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında qarşılanıblar.

Məktəblilər Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, Xaçmaz rayonu geniş turizm imkanlarına görə seçilən rayonlardandır. Buranı parklar və muzeylər şəhəri adlandırırlar. Bununla yanaşı, Xaçmaz ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından biridir.

Qonaqlar şəhərdəki Heydər Əliyev Mərkəzində də olublar.

Daha sonra məktəblilər Xaçmaz şəhərində Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulan, açıq səma altında yaradılan Şəxsiyyətlər muzeyinə gəliblər. Ekskursiya iştirakçılarına 2006-cı ildə yaradılan muzey-park haqqında ətraflı məlumat verilib.

Tur-aksiyanın iştirakçıları 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Məktəblilər Xaçmaz Dövlət Rəsm Qalereyası ilə tanışlıqdan sonra Bayraq Meydanı Kompleksinə gəliblər.

Meydan və Çənlibel parkında gəzintidən sonra məktəblilər ekskursiyalarını başa vuraraq yola salınıblar.

* * *

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə səfərə çıxan Xaçmaz, Siyəzən, həmçinin paytaxtın Binəqədi, Xəzər, Xətai, Qaradağ, Nərimanov və Nəsimi rayonlarının şagirdləri də bölgənin tarixi, mədəni və turizm məkanları, istehsalat müəssisələri, aparılan genişmiqyaslı quruculuq işləri ilə tanışlıqdan sonra yaşadıqları rayonlara yola düşüblər.

# Beynəlxalq aləm

## ABŞ-da futbol matçında atışma



ABŞ-ın Nyu Çersi ştatının Plezantvill şəhərində keçirilən futbol oyunu zamanı baş vermiş atışma nəticəsində azı iki nəfər yaralanmışdır. Bu barədə ABC telekanalı xəbər verir. Dəqiqləşdirilmiş məlumata görə, atəş Kamden və Plezantvill məktəbləri arasında matç zamanı açılmışdır. Yaralılar xəstəxanaya çatdırılmışdır.

Hadisəni törədənlər barədə hələ ki məlumat verilmir.

## Türkiyədə 4 bələdiyyə başçısı tutuldu



Türkiyənin cənub-şərqində terrorçu fəaliyyətdə əli olmaq ittihamı ilə 10 nəfərdən çox adam, o cümlədən Mardin vilayətinin Mazıdağı, Savur və Darik rayonlarının, habelə Şanlıurfa vilayətinin Suruç rayonunun bələdiyyə orqanlarının başçıları tutulmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Həbs Mardin və Şanlıurfa vilayətlərinin prokurorluğu tərəfindən aparılan istintaq çərçivəsində həyata keçirilmişdir. Mazıdağı bələdiyyəsinin başçısı Nalan Özaydın, Savur bələdiyyəsinin başçısı Gülüstan Öncü, Darik bələdiyyəsinin başçısı Mülkiyə Əsməz, habelə Suruc bələdiyyəsinin başçısı Xədicə Çevik mart ayında keçirilmiş seçkilərin nəticələrinə görə yerli idarəetmə orqanlarına rəhbər təyin olunmuşdular. Həbs edilənlərin namizədliyi PKK terrorçuları ilə əlaqədə ittiham olunan Türkiyə Xalqların Demokratik Partiyasından irəli sürülmüşdü.

Saxlanılanlar terrorçuluğa kömәkdə ittiham edilir. Onların dindirilməsi davam edir.

## ABŞ Kubaya qarşı yeni sanksiyalar tətbiq etdi



ABŞ Dövlət Departamentinin başçısı Mayk Pompeo Vaşinqtonun insan hüquqlarını pozmaqda ittiham etdiyi kubalı hərbçilərə qarşı sanksiyaları genişləndirmişdir. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Pompeonun dediyinə görə, Kuba Silahlı Qüvvələrinin nümayəndələrinə məxsus olan daha beş hotel "qara siyahı"ya salınmışdır. Noyabrın 19-dan etibarən Amerika fondlarına həmin mehmanxanalarla birbaşa maliyyə əməliyyatları həyata keçirmək qadağan edilmişdir. Hotellərdən biri Havanada yerləşir və dünən 500 illiyini qeyd etmişdir. Üç mehmanxana Hardines-del-Rey arxipelaqında, biri isə Varadero kurort şəhərində yerləşir.

Pompeo xatırlatmışdır ki, "bir vaxtlar Kuba Amerikanın ən dinamik və çiçəklənən şəhərlərindən biri idi. Lakin inqilab xalqın gözləntilərini aldatmaqda davam edir".



## Bağdadda partlayış

İraqın paytaxtı Bağdadda baş vermiş partlayış nəticəsində 6 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Hadisə hökumət əleyhinə etiraz nümayişlərinin iştirakçılarının toplaşdığı Azadlıq meydanının yaxınlığında baş vermişdir. Polisdən verilən məlumata görə, partlayıcı qurğu yaxınlıqdakı avtomobildə yerləşdirilmişdi.

Bundan əvvəl təhlükəsizlik qüvvələri ilə kütləvi etiraz aksiyalarının iştirakçıları arasında toqquşmalar olmuşdur. Etirazçılar beton maneələri sökməyə və Bağdadın mərkəzindəki Hallani meydanına soxulmağa cəhd etmişlər.

Nümayişçiləri dağıtmaq üçün polis havaya atəş açmış və gözyaşardıcı qazdan istifadə etmişdir. Buna baxmayaraq, bəzi etirazçılar meydana soxula bilmişlər.

İraqda hökumət əleyhinə aksiyalar ötən ayın 1-dən bəri davam edir. Sakinlər işsizliyə və korrupsiyaya etiraz edirlər. Nümayişlərin başlandığı vaxtdan bəri 319 nəfər həlak olmuş, 15 min nəfərdən çox adam yaralanmışdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu il 14 noyabr tarixində "Azərbaycan" qəzetində dərc edilmiş "Şəmkir rayonunda Uşaq Bərpa Mərkəzinin tikintisi işlərinin satın alınması" üzrə keçirilən təkliflər sorğusunun predmeti "Şəmkir rayonunda Uşaq Bərpa Mərkəzinin tikintisi və avadanlıqlarla təchizatı işlərinin satın alınması" kimi oxunsun.

***Tender komissiyası***

## BİLDİRİŞ

Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Hesablama texnikası və periferiya qurğuları"nın satın alınması üzrə keçirilmiş təkliflər sorğusunun qalibi "Bakinity Distribution" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

***Tender komissiyası***

# Burada sanki fəsillər birləşib...



Payızın da öz gözəlliyi var. Xüsusilə ağacların çox sıx olduğu yerlərdə payız mənzərələrinə tamaşa etmək insana qəribə duyğular bəxş edir. Ən çox bu fəslin bar-bərəkətindən fərəhlənir, gah da bir az kədərlənir, bir az da ümidlənirsən.

Paytaxtımızın Filarmoniya bağında isə bu il fəsillər sanki bir-birinə qovuşub. Bir yanda ağaclardan saralmış yarpaqlar ələnir. Yerə sarı, narıncı, qırmızımtıl rənglərdən toxunmuş "xalı" sərilib. Bir yanda da həmişəyaşıl ağaclar öz dəyişməz rəngi və görkəmi ilə elə bil qürurlanırlar.

Bakını çox sevən Amazonka adlandırdığımız quşlar da nəğmələrini oxumaqda davam edirlər - onlar üçün fəsillərin dəyişməsinin fərqi yoxdur.

Bu payız Filarmoniya bağında "möcüzə" də baş verib. Nar ağaclarının budaqlarında dərilməli, dəymiş meyvələrlə yanaşı... çiçəklər gözə dəyir. Bunu müşahidə edənlərin hamısı deyir ki, heç vaxt ilin bu çağında nar ağacının başında çiçək görməyiblər.

Səbəbini təbiətşünaslar, bağbanlar, bitkiçiliklə məşğul olan alimlər bilər. Bizlər üçün isə bu, təbiətin bir sürprizidir. Nar ağacının, nar çiçəyinin qarşıdan gələn qışa meydan oxumasıdır.

**"Azərbaycan",**
**Ağaəli MƏMMƏDOV (foto)**

## *Müdafiə Nazirliyi:* Ermənistan ordusunun bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qızılhacılı, Tovuz rayonunun Ağdam kəndlərində, Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ELMAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatları Şəmsəddin Hacıyev, Hadi Rəcəbli və Cavanşir Paşazadə Milli Məclisin deputatı Hüseynbala Mirələmova əzizi

**ELMAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8909
Sifariş 3827
Qiyməti 40 qəpik